**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏRƏB XİLAFƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN ƏHALİSİNİN ETNİK VƏ SOSİAL TƏRKİBİ (VII – IX ƏSRLƏR)

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Ramil Əyyub oğlu Ağayev**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2023**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**Yaqub Mikayıl oğlu Mahmudov**

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru
**Nailə Məmmədəli qızı Vəlixanlı**

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
**Hacıfəxrəddin Yəhya oğlu Səfərli**

tarix elmləri doktoru, dosent
**Tahirə Dadaş qızı Həsənzadə**

tarix elmləri doktoru, dosent
**Mehman Sirac oğlu Süleymanov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: Tarix elmləri doktoru, professor
____________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: Tarix üzrə fəlsəfə doktoru, dosent
____________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: Tarix elmləri doktoru, professor
____________ **Mais İsrail oğlu Əmrahov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Azərbaycan tarix elmində bir sıra öyrənilməmiş və yaxud zəif tədqiq olunmuş məsələlər vardır və həmin məsələlərin dərindən araşdırılması müasir dövrdə ortaya çıxan və yaxud süni şəkildə yaradılan müəyyən problemlərin həllinə yardım edə bilər. Bu baxımdan erkən orta əsrlər dövründə Azərbaycan ərazisində yaşamış əhalinin etnik və sosial tərkibi ilə bağlı olan məsələlərin araşdırılması Vətən tarix elmi üçün böyük maraq kəsb edir.

Azərbaycan əhalisinin etnik və sosial tərkibi, xüsusilə, etnik tarixi ilə bağlı olan məsələlər Vətən tarix elmində uzun illərdir öz həllini gözləyən ən maraqlı və eyni zamanda ən mürəkkəb məsələlərdəndir.

Azərbaycan tarix elmində Albaniya, Atropatena və Ərəb xilafəti haqqında çoxsaylı monoqrafiya və məqalələr yazılmasına baxmayaraq, Azərbaycanın tarixi coğrafiyası, onun əhalisinin dili, etnik və sosial tərkibi ilə bağlı bir sıra suallara hələ də cavab verilməmiş və bu sahədə xüsusi sanballı əsərlər yazılmamışdır. Həm Vətən, həm də xarici ölkə tədqiqatçılarının heç biri Ərəb xilafəti dövründə Azərbaycan ərazisində mövcud olmuş etnik və sosial mənzərəni ayrıca bir elmi problem kimi araşdırmağı öz qarşısına məqsəd qoymamışdır. Başqa sözlə, ümumi xarakter daşıyan əsərlərdə Ərəb xilafəti dövrü Azərbaycan əhalisinin etnik və sosial tərkibi ilə bağlı müəyyən məlumatlara rast gəlinməsinə baxmayaraq, bizim tədqiqatımızın əhatə etdiyi konkret tarixi dövrə aid xüsusi araşdırma aparılmamışdır.

Bu araşdırma həmin zəif öyrənilmiş məsələləri mümkün qədər işıqlandırmaq üçün həyata keçirilən ilk kompleks tədqiqatdır və Ərəb xilafəti dövründə Azərbaycan əhalisinin etnik və sosial tərkibinin öyrənilməsi sahəsindəki mövcud boşluğu aradan qaldırmaq istiqamətində öz töhfəsini verə bilər.

Müstəqillik əldə etmiş Azərbaycanın yerləşdiyi geosiyasi məkan, onun müxtəlif bəhanələrlə cəlb edildiyi müharibə və nəhayət, hər bir cəmiyyət üçün xass olan sosial xarakterli münasibətlər əhalinin etnik və sosial tərkibi ilə bağlı olan mövzuların

tədqiq olunmasını daha da aktuallaşdırır. Unutmaq olmaz ki, bu problem təkcə elmi-nəzəri deyil, həm də mühüm siyasi əhəmiyyətə malikdir. Bu fikrin nə dərəcədə doğru olduğunu əsaslandırmaq üçün müasir tarixi şəraitə, yaşadığımız regionun yaxın hüdudlarında baş verən etnik, dini və sosial məzmunlu qarşıdurmalara diqqət yetirmək kifayətdir.

Qafqaz regionunda mütləq üstünlüyə malik olan Azərbaycan türkləri, indiki Dağıstan, Gürcüstan, Cənubi Azərbaycan və süni şəkildə yaradılmış Dağlıq Qarabağ probleminin ortaya atılmasından əvvəl hal-hazırda Ermənistan adlanan tarixi Azərbaycan torpaqlarında əhəmiyyətli dərəcədə məskunlaşmışdır. Azərbaycan türklərinin belə bir geniş ərazidə yayılması təsadüfi deyildir və tarixi köklərə bağlıdır.

Əhalisinin böyük əksəriyyətini türklər təşkil edən Azərbaycan qədim dövrlərdən başlayaraq türklərlə yanaşı, bir çox Qafqaz və irandilli xalqların da ümumi Vətəni olmuşdur. Onlar burada əsrlər boyu birlikdə yaşamış, oxşar tarixə və ortaq dəyərlərə malik olmuşlar. Bu gün Azərbaycan türklərinin həyatını uzun müddət birlikdə yaşadıqları həmin xalqlarsız təsəvvür etmək belə mümkün deyildir. Lakin təəssüflər olsun ki, XIX-XX əsrlərdə tarixi ədəbiyyatda Azərbaycanın özünəməxsus bu etnik mənzərəsini təhrif edərək onu öz bildikləri kimi təqdim etmək cəhdləri olmuşdur. Maraqlıdır ki, bu cəhdlər etnik azlıqlara qarşı deyil, etnik çoxluqda olan türklərə qarşı həyata keçirilmişdir. Belə ki, türklərin Azərbaycana, guya sonradan gəlməsi, yerli əhalinin necə deyərlər, türkləşməsi və son nəticədə səlcuqların gəlişi ilə yerli əhalinin türklərə çevrilməsi kimi uydurma problem ortaya atılmış və həmin "problemin həlli yolunda" araşdırmalar aparılmışdır. Eyni cəhdlər Azərbaycan türk dilinin tədqiqi sahəsində də həyata keçirilmişdir.

Tarix elmində Azərbaycan torpaqlarında türk, İran və Qafqaz dil ailələrinə daxil olan xalqların qədim zamanlardan başlayaraq birgə yaşamasını qəbul etməmək xəstəliyi mövcuddur. Türklərin yerli xalq olmasını qəbul etmək üçün sanki hansısa bir əcnəbi "böyük alimin" xeyir-duası gözlənilir. Bunun əksinə olaraq, digər xalqların, o cümlədən, erməni və gürcülərin tarixinin qədimiləşdirilməsinə dair "faktlar" uydurulur, bu sahədə "söz sahibi" olan beynəlxalq

miqyasda qəbul edilmiş tarixçilər ortaya çıxarılır, həmin "böyük tarixçilərin" dedikləri isə ehkam kimi qəbul edilir.

Ərəb xilafəti dövrü Azərbaycanın tarixi coğrafiyası, əhalinin etnik və sosial tərkibi həm Vətən tarixşünaslığında, həm də xarici ölkələrin tarixşünaslığında ayrıca tədqiqat obyekti olmamışdır. Buna baxmayaraq, həm Azərbaycan, həm də bir sıra xarici ölkə tarixçilərinin VII-IX əsrlərə aid əsərlərində bizi maraqlandıran, tədqiq olunan mövzunun daha mükəmməl araşdırılmasına yardım edə biləcək bir sıra materiallar vardır.

A.A.Bakıxanov ilk dəfə olaraq özünün "Gülüstani-İrəm" əsərində Dağıstan və Şirvan tarixindən bəhs edərkən etnik tarixlə bağlı bəzi məqamlara toxunmuşdur[1].

Z.M.Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" adlı monoqrafiyasındakı "Azərbaycan əhalisinin müsəlmanlaşdırılması və qriqoryanlaşdırılması"[2] və "VIII-IX əsrlərdə Azərbaycanda etnogenez problemi"[3] adlı paraqraflar bizim üçün böyük maraq və əhəmiyyət kəsb edir. Z.M.Bünyadovun bir sıra məqalələrində də bizim mövzu ilə bağlı bəzi məqamlara toxunulmuşdur[4].

N.M.Vəlixanlının "Ərəb xilafəti və Azərbaycan" adlı monoqrafiyasının ərəblərin Azərbaycana köçürülməsi[5] ilə bağlı olan paraqrafında bir sıra maraqlı faktlara rast gəlinir. Onun son dövrlərdə çapdan çıxmış monoqrafiyasının üçüncü paraqrafında da bizə yardımçı olan bir sıra məqamlar vardır[6]. Müəllifin digər əsərlərində

---

[1] Бакиханов, А.А. Гюлистан-и Ирам / А.А.Бакиханов. – Баку: Элм, – 1989. – s.21-24.

[2] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Elm, – 1989. – s.85-100.

[3] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə.– s.162-167.

[4] Буниятов, З.М. Из истории Кавказской Албании VII-VIII вв / Вопросы истории Кавказской Албании (Сборник статей) / – Баку: Издательство Академии Наук Азербайджанской ССР, – 1962. – с. 149-180; Yenə onun: Буниятов, З.М. О длительности пребывания хазар в Албании в VII-VIII вв // – Баку: Известия АН Аз ССР. Серия общественных наук, – 1961, № 1. – с. 21-34.

[5] Vəlixanlı, N.M. Ərəb xilafəti və Azərbaycan / N.M.Vəlixanlı. – Bakı: Azərnəşr, – 1993. – s.60-74.

[6] Vəlixanlı, N.M. Azərbaycan VII – XII əsrlərdə: tarix, mənbələr, şərhlər / N.M.Vəlixanlı. – Bakı: Elm və təhsil, – 2016. – s.102-120.

də Azərbaycanın tarixi coğrafiyası, əhalisinin etnik tərkibi və dili ilə bağlı ərəbdilli mənbələrdə verilən faktlara münasibət bildirilmişdir. Digər tərəfdən N.M.Vəlixanlı ərəb coğrafiyaşünas-səyyahların əsərlərinin tərcümə olunması sahəsində də böyük əmək sərf etmişdir[7].

M.X.Şəriflinin IX-XI əsrlər Azərbaycan tarixinə həsr olunmuş monoqrafiyasında VII-IX əsrlər Azərbaycan tarixi ilə bağlı məsələlərə də toxunulmuşdur. Həmin monoqrafiyadakı Şirvan ərazisində yaşamış əhali, eləcə də ictimai vəziyyətlə bağlı bəzi məqamlar bizim üçün müəyyən əhəmiyyət kəsb edir[8].

S.B.Aşurbəylinin "Şirvanşahlar dövləti" adlı monoqrafiyasının "Şirvanşahlar dövləti VI əsr – IX əsrin birinci yarısında" adlı ikinci fəslində Azərbaycanın, xüsusilə, onun Şirvan bölgəsinin etnik mənzərəsi və Azərbaycanda mövcud olan dillər haqqında müəyyən məlumatlara rast gəlinir[9]. Müəllifin Bakı şəhərinin tarixinə həsr olunmuş əsərinin ikinci fəslində də Azərbaycan əhalisinin etnik və sosial tərkibi ilə bağlı müəyyən fikirlər səsləndirilmişdir[10].

P.K.Juzenin mütəqəlliblərə həsr olunmuş məqaləsində ərəblərin Azərbaycanda həyata keçirdiyi köçürmə siyasəti və onun etnik və sosial nəticələri ilə bağlı bəzi maraqlı faktlara rast gəlinir[11].

S.S.Əliyarlının Azərbaycan türk xalqının tarixi ilə bağlı bir sıra məqalələri vardır. Həmin məqalələrdə Azərbaycan türklərinin etnik və antropoloji xüsusiyyətlərinə xüsusi diqqət yetirilmişdir[12].

---

[7] Vəlixanlı, N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı: Elm, 1974; Ибн Хордадбех. Книга путей и стран . Пер. с араб., коммент., исслед., указ и карты Н. Велихановой / Ибн Хордадбех – Баку: Элм, – 1986.

[8] Şərifli, M.X. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri / M.X.Şərifli. – Bakı: Elm, – 1978. – s.34-37.

[9] Aşurbəyli, S.B. Şirvanşahlar dövləti / S.B Aşurbəyli. – Bakı: Avrasiya press, – 2006. – s.17-90.

[10] Ашурбейли, С. Б. История города Баку / С.Б. Ашурбейли. – Баку: Азернешр, – 1992. – с.52-86.

[11] Жузе, П.К. Мутагаллибы в Закавказье в IX – X вв // – Тифлис: МИГК, – 1937, вып. III, – с.167-215.

[12] Əliyarlı, S.S. Tariximiz açıqlanmamış mövzuları ilə / S.S.Əliyarlı. – Bakı: Mütərcim, – 2012.

Q.Ə.Qeybullayevin bir sıra monoqrafiya və məqalələrində qədim və orta əsrlər dövrü Azərbaycan əhalisinin etnik mənzərəsi ümumi şəkildə nəzərdən keçirilmişdir. Onun iki monoqrafiyası, xüsusilə, qeyd edilməlidir[13].

Y.M.Mahmudovun[14] bir sıra əsərlərində tədqiq olunan mövzunun daha dərindən araşdırılmasında bizə yardım edəcək bir sıra maraqlı faktlar vardır.

Yuxarıda göstərilən tədqiqatçılarla yanaşı F.M.Əsədovun[15], N.Ç.Axundovanın[16], Q.C.Cəbiyevin[17], N.A.Əliyevanın[18] və X.S.Qasımovun[19] tədqiqatlarında Azərbaycanın Ərəb xilafəti dövrü haqqında bəhs etmiş müəlliflərin əsərləri ümumi şəkildə nəzərdən keçirilmiş və bəzi maraqlı fikirlər söylənilmişdir.

---

[13] Qeybullayev, Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən / Q.Ə.Qeybullayev. – Bakı: Azərnəşr, – 1994. Yenə onun: Гейбуллаев Г.А. К этногенезу азербайджанцев / Г.А.Гейбуллаев. – Баку: Элм, – 1991.

[14] Mahmudlu, Y.M. Səyyahlar, kəşflər, Azərbaycan / Y.M.Mahmudlu. – Bakı: Təhsil, – 2012; Yenə onun: Mahmudlu, Y.M. Dədə Qorqud yurdunun qədim sakinləri: Azərbaycanlılar // – Bakı: Altay dünyası, – 1999. № 5-6. – s. 119-133; Yenə onun: Mahmudov, Y.M. "Dədə Qorqud kitabı" – xalqın yaratdığı və yaşatdığı tarix // Dədə Qorqud dünyası (məqalələr toplusu). Y.M.Mahmudov. – Bakı: – 2004. – s. 18-35.

[15] Асадов, Ф.М. Полемика о длительности доминирования хазар на Южном Кавказе в хазароведческих исследованиях второй половины XX века // Средневековый Восток: проблемы историографии и источниковедения (Сборник статей памяти Героя Советского Союза, академика З.М.Бунятова) – Баку: Элм, – 2015. – с. 16-35.

[16] Ахундова, Н.Ч. Тюрки в системе государственного управления Арабского халифата (VIII-сер. X вв.) / Н.Ч.Ахундова. – Баку: Элм, – 2004..

[17] Cəbiyev, Q.C. Girdiman tarixi (VI-IX əsrlər) / Q.C.Cəbiyev. – Bakı: Şərq-Qərb, – 2010.

[18] Əliyeva, N A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində / N.A.Əliyeva. – Bakı: Çaşıoğlu, – 1999; Yenə onun: Əliyeva, N.A. Azərbaycanın elmi-mədəni mühitinin öyrənilməsində ərəbdilli ədəbiyyatın rolu (XI-XIII əsrlər) / N.A.Əliyeva. – Bakı: Elm və Təhsil, – 2015; Yenə onun: Əliyeva, N.A. Əs-Samaninin "Kitab əl-Ənsab" əsəri Azərbaycan mədəniyyəti tarixinə dair mənbə kimi / N.A.Əliyeva. – Bakı: Şərq-Qərb, – 2010; Yenə onun: Əliyeva, N.A. Orta əsrlərdə Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti / N.A.Əliyeva. – Bakı: Turxan NPB – 2015.

[19] Qasımov, X.S. Etnogenezis problemi və mədəniyyət tariximiz // Elm. – 1994, 8 aprel.

Tədqiqat zamanı Albaniya və Atropatena tarixi ilə məşğul olan tədqiqatçıların, eləcə də Səlcuqlar dövrü araşdırıcılarının əsərləri də nəzərdən qaçırılmamışdır. Belə tədqiqatçılar sırasında Y.A.Paxomovun[20], İ.H.Əliyevin[21], A.H.Fazilinin[22], Y.B.Yusifovun[23], Ə.S.Sumbatzadənin[24], Z.İ.Yampolskinin[25], K.H.Əliyevin[26], T.M.Məmmədovun[27], F.C.Məmmədovanın[28], S.Y.Qasımovanın[29], Ş.M.Mustafayevin[30], T.H.Nəcəflinin[31], Ə.N.Nəcəfin[32], L.A. Əliyevanın[33] əsərlərini qeyd edə bilərik.

---

[20] Пахомов, Е.А. О Дербендском княжестве XII – XIII вв // – Баку: Изв. Аз.ГНИИ, – 1930. Т. 1, вып. 2. – с. 1-12.

[21] Алиев, И.Г. О некоторых вопросах этнической истории азербайджанского народа / И.Г.Алиев. – Баку: Нурлан, – 2002; Yenə onun: Алиев И.Г. Очерки истории Атропатены / И.Г.Алиев. – Баку: Азернешр, – 1989.

[22] Fazili, A.H. Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında / A.H.Fazili. – Bakı: Elm, – 1984.

[23] Юсифов, Ю.Б. Об актуальных проблемах этнической истории Азербайджана // Проблемы изучения источников по истории Азербайджана (сборник статьей). – Баку: Изд-во АГУ, – 1988. – с. 15-39.

[24] Сумбатзаде, А.С. Азербайджанцы – этногенез и формирование народа / А.С.Сумбатзаде. – Баку: Элм, – 1990.

[25] Ямпольский, З.И. Об этногенетической непрерывности на почве Азербайджана // Вопросы истории Кавказской Албании (Сборник статей). – Баку: Издательство Академии Наук Азербайджанской ССР, – 1962. – с. 32-43.

[26] Алиев К.Г. Писатели античности об Азербайджане / К.Г.Алиев. – Баку: Улу, – 2001.

[27] Məmmədov, T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə / T.M.Məmmədov. –Bakı: Təhsil, – 2006.

[28] Məmmədova, F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası (e.ə. III əsr-eramızın VIII əsri) / F.C.Məmmədova. – Bakı: Azərnəşr, – 1993.

[29] Касумова, С.Ю. Азербайджан в III-VII вв / С.Ю.Касумова. – Баку: Элм, – 1993.

[30] Mustafayev, Ş.M. Səlcuqilərdən Osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər / Ş.M.Mustafayev. – Bakı: Elm, – 2010.

[31] Nəcəfli, T.N. Cahangir Zeynaloğlunun "Şirvanşahlar yurdu" əsəri haqqında // – Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu. Elmi əsərləri, – 2009, c. XXVIII. – s. 73-79.

[32] Nəcəf, Ə.N. Hun minilliyi (b.e.ə. IV – b.e. VI əsrlərdə türk dünyası) / Ə.N.Nəcəf. – Bakı: TEAS Press Nəşriyyat evi, – 2015.; Yenə onun: Səlcuqlu dövlətləri və Atabəyləri tarixi. Bakı: Qanun, – 2010,

[33] Əliyeva, L.A. Qıpçaqlar və Azərbaycan (etnogenez kontekstində) / L.A.Əliyeva. – Bakı: BDU nəşriyyatı, – 2006.

Arxeologiya sahəsində aparılmış bəzi tədqiqatlar Ərəb xilafəti dövrü Azərbaycan əhalsinin həm etnik, həm də sosial tərkibini daha dərindən öyrənmək baxımından diqqətəlayiqdir. Arxeoloji araşdırmalar sırasında İ.A.Babayev və Q.M.Əhmədovun[34], A.Nuriyev və Ə.Babayevin[35], A.M.Məmmədovun[36], N.Ə.Museyiblinin[37] T.M.Dostiyevin[38], C.A.Xəlilovun[39], M.C.Xəlilovun[40] əsərləri, xüsusilə, qeyd edilməlidir.

Tədqiqat zamanı Azərbaycanda yaşayan etnik azlıqlara həsr olunmuş etnoqrafik tədqiqatlara, antropoloji və leksikoloji araşdırmalara da müraciət edilmişdir[41].

Rus-sovet tədqiqatçılarının əsrlərində də bizim təqdqiqi etdiyimiz mövzu ilə bu və ya digər şəkildə səsləşən müəyyən faktlara rast gəlinir. Belə tədqiqatçılar sırasında V.V.Bartoldun[42],

---

[34] Babayev, İ.A. Qəbələ (Tarixi-arxeoloji oçerk) / İ.A.Babayev, Q.M.Əhmədov. – Bakı: Elm, – 1981.

[35] Nuriyev, A. Bərdə şəhərinin tarixi-arxeoloji oçerki (Antik və orta əsrlər) / A.Nuriyev, Ə.Babayev. – Bakı: Nurlan, – 2001.

[36] Məmmədov, A.M. Gəncə və onun ətrafının tarixi-arxeoloji tədqiqi (Ən qədim zamanlardan – XIX əsrə qədər) / A.M.Məmmədov. – Gəncə: Elm, – 2008.

[37] Museyibli, N.Ə. Azərbaycan arxeologiyası: uğurlar, problemlər, perspektivlər (elmi-publisistik məqalələr toplusu) / N.Ə.Müseybli. – Bakı: AFPoliqrAF, – 2017.

[38] Dostiyev, T.M. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə / T.M.Dostiyev. – Bakı: BDU nəşriyyatı, – 2001.

[39] Халилов, Дж.А. Материальная культура Кавказской Албании (IV в. до н.э. – III в. н. э.) / Дж.А.Халилов. – Баку: Элм, – 1985. – 279 с.

[40] Xəlilov, M.C. Albaniyanın xristian abidələri / M.C.Xəlilov. – Bakı: Xəzər Universiteti nəşriyyatı, – 2011.

[41] Xəlilli, X.D. Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi / X.D.Xəlilli. – Bakı: MBM, – 2007; Quliyeva, N.H. Azərbaycan tatlarının ailə məişəti və mənəvi mədəniyyəti / N.H.Quliyeva. – Bakı: Nurlan, – 2005; Hüseynova G.İ. Tat dilinin leksikası / G.İ.Hüseynova. – Bakı: Elm və təhsil, – 2013; Əliyev, M.M. Azərbaycan tatları / M.M.Əliyev. – Bakı: MBM, – 2006; Məmmədov, K.A. Azərbaycan türklərinin paleoantropologiyası // Tarixi və milli dəyərlər kontekstində Azərbaycan milli kimliyi (məqalələr toplusu). K.A.Məmmədov. – Bakı: Elm və təhsil, – 2014; Kazımov, Q. Azərbaycan dilinin tarixi / Q.Kazımov. – Bakı: Təhsil, , – 2003.

[42] Бартольд, В.В. География и этнография Ирана. Сочинения: [ в 9-ти томах] / В.В.Бартольд – Москва: Наука, – т. 7. – 1971. – с.257-273; Yenə onun: Бартольд, В.В. Азербайджан и Армения. Сочинения: [ в 9-ти томах] / В.В.Бартольд – Москва: Наука, – т. 7. – 1971. – с.203-214.

A.İ.Kolesnikovun[43], M.İ.Artamonovun[44], L.N.Qumilyovun[45], S.A.Pletnevanın[46] əsərləri, xüsusilə, qeyd edilməlidir.

İran tədqiqatçılarından R.Rəisniyanın[47], S.Ə.Kəsrəvinin[48], C.Heyətin[49], S.Nəfisinin[50], C.Məşkurun[51], M.T.Zəhtabinin[52], Y.Zəkanın[53], R.İnayətullahın[54], M.Ravəndinin[55] əsərlərində həm Sasanilər, həm də Ərəb xilafət dövrü İran tarixindən bəhs olunarkən Azərbaycan əhalisinin etnik və sosial tərkibi ilə bağlı məsələlərə də yer verilmişdir.

Türkiyə tarixçilərindən Z.V.Toğan Azərbaycan ərazisində baş verən etnik proseslərlə bağlı müəyyən fikirlər səsləndirmişdir[56]. Digər Türkiyə tədqiqatçılarından F.Sumerin[57], M.F.Kırzıoğlunun[58],

---

[43] Колесников, А.И. Завоевание Ирана арабами / А.И.Колесников. – Москва: Наука, – 1982.

[44]Артамонов, М.И. История Хазар / М.И.Артамонов. – СПб: Изд-во Государственного Эрмитажа, – 2002.

[45] Гумилёв, Л.Н. География этноса и исторический период / Л.Н.Гумилёв. – Ленинград: Наука, – 1990; Yenə onun: Гумилёв, Л.Н. Открытые Хазарии (историко-географический этюд) / Л.Н. Гумилёв. – Москва: Айрис-пресс, – 2004.

[46] Плетнева, С.Б. История хазар / С.Б.Плетнева. – Москва: Наука, – 1986.

[47] رئیس نیا رحیم. آذربیجان در سیر تاریخ ایران. بخش اول و دوم. تبریز، 1368.

[48] کسروي احمد. آذري یا زبان باستان آذربیجان. تهران، 1325.

[49] Heyət, C. Türk dili və ləhcələrinin tarixinə nəzər / C.Heyət. – Bakı: Şəms, – 2006,

[50] نفیسي سعید. تاریخ اجتماعی ایران از انقراض ساسانیان تا انقراض امویان . تهران، 1342.

[51] مشکور محمد جواد. نزري به تاریخ آذربیجان و آثار باستاني و جمعیت شناسي ان. تهران، 1369.

[52] Zəhtabi, M.T. İran türklərinin qədim tarixi (Fars dilindən tərcümə edəni İ. Əsədov) / M.T.Zəhtabi. – Bakı: Şəms, – 2010.

[53] یحیی ذکا. ردیابی زبانهای ایران در قفقاز. گویش تاتي یا ارانی. ایران و قفقاز(اران و شروان). نوشته گرداواري و تنظیم دکتر برویزورجاوند. تهران: نشر قطره، 1378. ص287-295.

[54] عنایة الله رضا، آذربایجان و اران. ایران و قفقاز(اران و شروان). نوشته ، گرداواري و تنظیم دکتر برویزورجاوند. تهران: نشر قطره، 1378. ص. 55-76.

[55] راوندي مرتضی ، تاریخ اجتماعي ایران، ج 3، تهران، 1364.

[56] Toğan, Z. V. Ümumi türk tarihine giriş. C.1. En eski devirlerdən 16. Asra kadar. 3. Baskı [2 ciltdə] / Z.V.Toğan. – İstanbul: Enderun Kitabevi, – 1981.

[57] Sumer, F. Oğuzlar (Turkmenlər). Tarihleri, Boy teşkilatı, Destanları. İlavelerle 3. baskı / F.Sumer. – İstanbul: Milli Egitim basım evi, – 1980.

[58] Kırzıoğlu, M.F. Yukarı – Kür ve Çoruk Boylarında Kıpçaklar / M.F.Kırzıoğlu. – Ankara: TTKY, –1992.

M.Sarayın[59] əsərlərində də bizə yardım edəcək bəzi materiallara rast gəlmək mümkündür.

Bir sıra Avropa, Amerika və yəhudi tarixçiləri də öz əsərlərində Ərəb xilafəti dövründə Azərbaycan əhalisi və onun dili haqqında bəzi fikirlər söyləmişlər. Belə tədqiqatçılar sırasında C.E.Bosvortu[60], A.Kastleri[61], X.Kennedini[62], P.V.Qoldeni[63], K.A.Bruku[64], D.M.Danlopu[65] və başqalarının əsərlərini misal göstərmək olar.

Beləliklə, İstər Vətən, istərsə də xarici ölkə tarixçiləri bu və ya digər şəkildə Ərəb xilafəti dövrü Azərbaycan əhalisinin etnik və sosial tərkibi haqqında müəyyən fikirlər söyləsələr də, onların heç biri bu məsələni bir problem kimi araşdırmağı qarşıya məqsəd qoymamış və bu problem indiyədək ayrıca tədqiqat obyekti kimi öyrənilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycanın VII – IX əsrlər tarixi, predmeti isə həmin dövrdə yaşamış əhalidir. Dissertasiyada seçilmiş mövzunun obyekt və predmitinə uyğun olaraq ilkin yazılı qaynaqların məlumatları və mövcud elmi ədəbiyyatın materialları əsasında Azərbaycanın Ərəb xilafətinin tərkibində olduğu dövrdə ölkə ərazisində yaşamış əhalinin

---

[59] Saray, M. Quzey ve Güney Azərbaycan türklərinin tarixi / M.Saray. – Bakı: Şərq-Qərb, – 2010.

[60] Босворт, К. Э. Нашествия варваров, появление тюрок в мусульманском мире. Мусульманский мир (950-1150) (сборник статьей) / К.Э.Босворт. – Москва: Наука, – 1981.

[61] Koestler, A. The Thirteenth tribe. The Khazar Empire and its heritage / A. Koestler. – London: Hutchinson of London. – 1976.

[62] Кеннеди, Х. Великие арабские завоевания / Х.Кеннеди. – Москва: АСТ, – 2010.

[63] Golden, P.B. The conversion of the Khazars to Judaism. The World of the Khazars / Edited by P.B. Golden, H. Ben-Shammai and A. Rona-Tas – Leiden: Brill, – 2007. – pp. 123-162; Yenə onun: Golden P.B. Türk xalqları tarihine giriş / Çorum: Kara M, – 2007.

[64] Brook, K.A. Hazar yahudileri (Çevirmen İsmail Tulcalı) / K.A.Brook. – İstanbul: Nokta kitab, – 2005.

[65] Dunlop, D.M. Hazar Yahudi Tarihi (İngilizceden Çeviren Zahide Ay) / D.M. Dunlop. – İstanbul: Selenge yayınları, – 2008.

etnik və sosial tərkibi tədqiq olunmuş, başlıca etnoslar və sosial təbəqələr müəyyən edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində başlıca məqsəd orta əsr mənbələrində, xüsusilə, ərəb və farsdilli mənbələrdə rast gəlinən materiallara və tarix elmində, eləcə də arxeologiya, etnoqrafiya, antropologiya və dilçilik sahəsində mövcud olan müxtəlif fikirlərə əsaslanaraq Ərəb xilafəti dövründə Azərbaycan əhalisinin etnik və sosial tərkibini tədqiq etməkdən ibarətdir. Həmin məqsədə nail olmaq üçün tədqiqat işinin qarşısında konkret olaraq aşağıdakı vəzifələr qoyulmuşdur:

- Ərəb istilası ərəfəsində Azərbaycan ərazisindəki etnosiyasi vəziyyəti aydınlaşdırmaq;
- Azərbaycan əhalisinin etnik tərkibi ilə bağlı ərəbdilli mənbələrlə, ərəblərə qədərki mənbələr arasındakı ziddiyyətləri müəyyən etmək;
- Erkən orta əsrlərdə Azərbaycan ərazisinə yürüşlər edən türkdilli xalqların Azərbaycan xalqının təşəkkülündə rolunu müəyyənləşdirmək;
- Ərəb xilafəti dövründə Azərbaycanın etnik mənzərəsini canlandırmaq və əhalinin etnik tərkibində türklərin başlıca rolunu əsaslandırmaq;
- Ərəb xilafəti dövründə Azərbaycan ərazisində yaşamış irandilli etnosları müəyyən etmək;
- Ərəb xilafəti dövründə Azərbaycan ərazisində yaşayan qafqazdilli əhali kateqoriyasını müəyyənləşdirmək;
- Azəri və Arran dilləri ilə bağlı fikirlərə aydınlıq gətirmək;
- Ərəblərin həyata keçirdiyi köçürmə siyasətinin əhalinin etnik tərkibinə təsiri səviyyəsini öyrənmək;
- Ərəb xilafəti dövründə Azərbaycan əhalisinin sosial tərkibində hakim zümrələrin rolunu müəyyənləşdirmək;
- Ərəb xilafəti dövründə Azərbaycan şəhər əhalisinin sosial tərkibini və onun ayrı-ayrı alt qruplarını aşkar etmək;
- Ərəb xilafəti dövründə kənd əhalisinin sosial tərkibini müəyyən etmək.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı qarşıya qoyulan məqsədə nail olmaq üçün, əsasən, tarixi-müqayisəli təhlil metoduna

üstünlük verilmişdir. Ərəb xilafəti dövründə Azərbaycan ərazisindəki etnik mənzərəni canlandırmaq, bu etnik mənzərədə başlıca rol oynayan etnosları fərqləndirmək, habelə əhalinin sosial tərkibini, onun tərkibinə daxil olan alt qrupları müəyyən etmək üçün əldə edilməsi mümkün olan, müxtəlif dillərdə yazılmış mənbələr, mövcud elmi ədəbiyyat araşdırılaraq təhlil edilmiş və məntiqi nəticələr çıxarılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyanın əsas müddəaları aşağıdakılardan ibarətdir:

- Ərəb xilafəti dövründə Azərbaycan dedikdə, həm Arazdan cənubdakı, həm də Arran və Şirvan torpaqları da daxil olmaqla Dərbəndə qədər uzanan Arazdan şimaldakı ərazilər başa düşülürdü. Başqa sözlə, tarixi Azərbaycan torpaqları cənubda Zəncandan başlayaraq, şimalda Dərbəndə qədər, şərqdə Xəzər dənizi sahillərindən başlayaraq, qərbdə Tiflis şəhəri, Van gölü, Dəclə çayı yaxınlığınadək olan əraziləri əhatə edirdi;
- Ərəbdilli mənbələrlə onlara qədərki mənbələrin Azərbaycan əhalisinin etnik tərkibi ilə bağlı vermiş olduqları məlumatların müqayisəli təhlili onların arasında müəyyən ziddiyyətlərin olduğunu söyləməyə imkan verir. Ərəblərə qədərki mənbələrdə rast gəlinən bir sıra etnosların adına o cümlədən, albanların adına bir etnos kimi ərəb və farsdilli mənbələrdə rast gəlinmir;
- Ərəb xilafəti dövründə Azərbaycanda yaşamış əhali, əsasən, üç dil ailəsinin (türk, Hind-Avropa və Qafqaz) təmsilçiləri idi. Onların arasında ümumi şəkildə “türklər” adlandırılan etnoslar mütləq üstünlük təşkil edirdi;
- Bir sıra ərəbdilli müəlliflər öz əsərlərində eramızdan əvvəl baş vermiş hadisələrdən bəhs edərkən Azərbaycanın qədim əhalisini “türklər” adlandırırlar. Türklər Azərbaycan ərazisində qədim dövrlərdən başlayaraq məskunlaşmış, erkən orta əsrlərdə hunların, sabirlərin və xəzərlərin, XI əsrdə isə səlcuqların axınları ilə onların rolu daha da artmışdır;
- Tarixi mənbələrdə rast gəlinən faktlar Azərbaycan türk xalqı və onların dili ilə bağlı XX əsrdə formalaşmış mövcud konsepsiyanın – guya bu xalq XI-XII əsrlərdə digər xalqları əsaslı surətdə

sıxışdıraraq aradan çıxarmış və onun dili hakim dilə çevrilmişdir – əsassız olduğunu göstərir;

- Ərəb xilafəti dövründə Azərbaycan ərazisində türklərlə yanaşı qafqazdilli, və irandilli tayfalar birlikdə yaşayırdılar. Həmin tayfalardan bir qismi ortadan qalxmış, bəziləri isə öz adlarını və dillərini bugünədək mühafizə edərək, hal-hazırda da Azərbaycan torpaqlarında yaşamaqda davam edirlər;

- Ərəb xilafətinin həyata keçirdiyi köşürmə siyasəti ölkənin etno-siyasi xəritəsinə yeni axınlar gətirdi və müəyyən dəyişikliklərlə nəticələndi. Lakin Ərəb xilafəti dövründə ərəb qəbilə və tayfalarının Azərbaycan ərazisinə köçürülməsi və ərəb dilinin yayılması əhalinin ərəbləşməsinə gətirib çıxara bilmədi;

- Ərəb xilafəti dövründə Azərbaycan ərazisində əsas etnos türklər olduğu kimi, başlıca dil də, şübhəsiz, onlara məxsus türk dili idi;

- Elmi ədəbiyyatdakı azəri dilinin iranmənşəli dil olması, tat və talış dillərinin onun varisi olması haqqında formalaşdırılmış fikirlər yanlışdır;

- Heç bir yazılı mənbədə arran dilinin etnik mənsubiyyəti haqqında tutarlı məlumat yoxdur. Bu dili Qafqaz dil ailəsinə aid edənlər heç bir konkret fakta söykənmirlər. Həm Sasanilər, həm də ərəblər dövründə yadellilərə qarşı yeganə müqavimət göstərən qüvvələrin türklər olduğunu əsas götürsək, albanlar dedikdə elə buradakı türklər, alban (arran) dili dedikdə isə onların dili başa düşülə bilərdi;

- Mənbələrin materialları göstərir ki, Ərəb xilafətinin yarandığı ilk dövrlərdə Sasanilər dövrünün sinfi və sosial tərkibinə yaxın bölgü mövcud idi. Burada keçmiş sosial mənşəli terminlər yeni terminlərlə yanaşı uzun müddət işlənməkdə davam etmiş və öz varlığını qoruyub saxlamışdır. Lakin ərəblərə qədərki təbəqələrlə yanaşı, tamamilə yeni olan bir sıra sosial təbəqələr və onlara uyğun sosial xarakterli terminlər də yaranmışdır;

- Mənbələrin verdiyi məlumata əsasən Ərəb xilafəti dövründə də hər bir sinfi cəmiyyətdə olduğu kimi, əhalinin iki əsas qrupa bölünməsi inkar edilməzdir:

1. Hakim təbəqələr (əl-təbəqat əl-aliyyə);
2. Aşağı təbəqələr (əl-təbəqat əl-əsfəl).

Bəzən ilkin mənbələrdə "orta təbəqələr" (ət-təbəqat əl-vusta) anlayışına da rast gəlinir.

- İlkin mənbələrdə ayrı-ayrılıqda şəhər və kənd əhalisindən bəhs edilir. Həmin qaynaqların məlumatlarını ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, Ərəb xilafəti dövründə Azərbaycan ərazisində yaşamış əhali sosial baxımdan, əsasən, üç qrupa bölünürdü: 1. Hakim zümrələr; 2. Şəhər əhalisi; 3. Kənd əhalisi;

- Ərəb xilafəti dövründə Azərbaycan şəhərlərində yaşayan əhali sosial baxımdan aşağıdakı qruplara bölünürdü:

1. İnzibati-idarə sistemində təmsil olunan hakim zümrələr;
2. Sənətkarlar və tacirlər;
3. Onların heç birinə daxil olmayan müxtəlif kateqoriyadan olan əhali qrupları;
4. Əsasən şəhərin ətraf məhəllələrində məskunlaşan əkinçi-kəndlilər. Bununla yanaşı, orta əsr qaynaqlarında şəhər əhalisi ilə bağlı iki ifadəyə də rast gəlinir. 1. Yerlilər; 2. Gəlmələr;

- Ərəb xilafati dövründə Azərbaycan əhalisinin böyük bir hissəsini kənd əhalisi təşkil edirdi. Mənbələrin verdiyi məlumatlara əsasən, kənd əhalisi aşağıdakılardan ibarət idi:

1. Kənd yerlərində yaşayan hakim təbəqə nümayəndələri, torpaq sahibləri və icma başçıları;
2. Bilavasitə əkinçiliklə məşğul olan və müxtəlif kateqoriyalara bölünən kəndlilər;
3. Maldarlıqla məşğul olan kəndlilər.
4. Sənətkarlar;
5. Heç bir qrupa daxil olmayan öz güzəranını müxtəlif yollarla keçirən təbəqələr.

**Tədqiqatın elmi yeniliyi.** Ərəb xilafəti dövründə Azərbaycan əhalisinin etnik və sosial tərkibi Vətən tarix elmində ilk dəfə olaraq tədqiqata cəlb olunmuş və aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- Azərbaycan əhalisinin etnik tərkibi ilə bağlı məlumat verən ərəbdilli mənbələrlə ərəblərə qədərki mənbələr arasındakı ziddiyyətlər üzə çıxarılmışdır;

- Erkən orta əsrlərdə Azərbaycan ərazisinə yürüş edən türkdilli xalqlarla onlardan əvvəl bu ərazidə yaşamış, ümumi şəkildə

“türklər” adlanan xalq arasında müəyyən fərqlərin olması aşkar edilmişdir;

- Ərəb xilafəti dövründə Azərbaycan əhalisinin etnik tərkibində türklərin aparıcı rol oynaması, ölkə ərazisinin ümumtürk mühitinin tərkib hissəsi olduğu müəyyən edilmişdir;

- Qədim və erkən orta əsrlər dövründən bəhs edən ərəb və farsdilli mənbələrin Azərbaycanı “türklər ölkəsi”, əhalisini isə “Azərbaycan türkləri” adlandırması əsaslandırılmışdır;

- Ərəb xilafəti dövründə Azərbaycan əhalisinin etnik tərkibində Qafqaz və irandilli xalqların müəyyən yer tutması və onların türklərlə oxşar və ortaq dəyərlərə malik olması müəyyən edilmişdir;

- Ərəb xilafəti dövründə Azərbaycan ərazisində işlədilən azəri dilinin iranmənşəli, arran dilinin qafqazmənşəli dil olması haqqında ideya tərəfdarlarının gətirdiyi arqumentlərin tutarlı olmaması üzə çıxarılmışdır;

- Ərəblərin Azərbaycanda həyata keçirdiyi köçürmə siyasətinin etnik, linqivistik və dini nəticələri daha dərindən tədqiq edilmişdir;

- Ərəb xilafəti dövründə Azərbaycan əhalisinin sosial tərkibində hakim zümrələrin başlıca rolu müəyyən edilmişdir;

- Ərəb xilafəti dövründə Azərbaycanın şəhər və kənd əhalisinin sosial tərkibinin mürəkkəb xarakterə malik olması müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində Ərəb xilafəti dövrü Azərbaycan əhalisinin etnik və sosial tərkibi ilk dəfə olaraq elmi əsaslarla araşdırılır və bu araşdırmanın nəticələri öz növbəsində orta əsrlər Azərbaycan əhalisinin tərkibinin daha ətraflı şəkildə öyrənilməsinə yardım edə bilər.

Əldə edilən nəticələrdən Azərbaycanın Ərəb xilafəti dövrünə aid yazılan tədqiqat əsərlərində, əhalinin etnogenezi və sosial tərkibi ilə bağlı araşdırmalarda, eləcə də Azərbaycan ərazisində etnik və sosial xarakterli məsələlərin elmi şəkildə tənzimlənməsində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işi AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun “Orta əsrlər tarixi” şöbəsində yerinə yetirilmiş, şöbənin 23 aprel 2018-ci il tarixli

iclasında müzakirə olunmuş və müdafiəyə buraxılmaq üçün məsləhət görülmüşdür.

Dissertasiya işinin əsas nəticələri müəllifin 1 monoqrafiyasında, müxtəlif elmi jurnallarda çap olunmuş 28 məqaləsində (o cümlədən 5-i xarici ölkələrdə) , həmçinin bir sıra elmi konfranslarda söylənilmiş 7 məruzəsində (5 konfrans materialı, 2 tezis) öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Tədqiqat işi giriş, 6 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi (istifadə edilmiş ədəbiyyat siyahısı istisna edilməklə) 499592 işarədən, o cümlədən Giriş 23914, I Fəsil 68921, II Fəsil 62449, III Fəsil 77632, IV Fəsil 82709, V Fəsil 67681, VI Fəsil 102555, Nəticə 13731işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində tədqiq olunan problemin aktuallığı, xronoloji çərçivəsi, öyrənilmə səviyyəsi şərh olunmuş, onun məqsəd və vəzifələri müəyyənləşdirilmiş, elmi yeniliyi əsaslandırılmış, nəzəri-metodoloji əsasları, praktiki əhəmiyyəti göstərilmiş, həmçinin dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiyanın I fəsli "**Ərəb istilası ərəfəsində Azərbaycan torpaqlarında etnik vəziyyət və yeni türk tayfalarının Azərbaycanda məskunlaşması"** adlanır və üç yarımfəsildən ibarətdir. **"Ərəb istilası ərəfəsində Azərbaycanda etnik proseslər"** adlanan birinci yarımfəsildə ölkənin Ərəb xilafətinin tərkibinə daxil edilməsindən əvvəlki etnik mənzərəsi əks olunmuşdur. Azərbaycan əhalisinin VII – IX əsrlərdəki etnik tərkibini müəyyən etmək üçün istər-istəməz ərəblərə qədərki, xüsusilə IV-VI əsrlərdə mövcud olmuş etnogen durum haqqında bəhs etmək zərurəti yaranır.

Azərbaycanın erkən orta əsrlər tarixini araşdırmış tədqiqatçılara görə, erkən orta əsrlərdə Azərbaycan ərazisində müxtəlif dil ailələrinə daxil olan bir sıra xalqlar və tayfalar yaşamışdır. Bunların sırasında kaspilər, kadusilər, leqlər, utilər, amardlar, albanlar, qarqarlar, lpinlər, zekenlər, xenuklar, tavasparlar, qatlar, qluarlar, maskutlar, cilblər, və s. başqalarının adlarını qeyd etmək olar[66]. Lakin ərəb və farsdilli müəlliflərinin əsərlərində həmin tayfa və xalqların böyük əksəriyyətinin nəinki mənşəyi haqqında məlumata, heç adlarına belə rast gəlinmir.

Sasanilər dövründə və Ərəb istilası ərəfəsində Azərbaycan ərazisində yaşamış, öz əksini ərəb və farsdilli mənbələrdə də tapmış xalqlardan biri də qarqarlardır. Ərəb və farsdilli mənbələr qarqarları türk adlandırır. Məsələn, "Hüdud əl-aləm"də qarqarlarla yanaşı,

---

66 Məmmədov, T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. – s.43-79; Məmmədova, F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. – s.85-95; Алиев, К.Г. Писатели античности об Азербайджане. – s.31; Ağayev, R.Ə. Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi / R.Ə.Ağayev. – Bakı: Turxan NPB, – 2017. – s.50.

digər xalqlar haqqında da ətraflı məlumat verən naməlum müəllif daha sonra yazır: *“Haqqında bəhs etdiyimiz bu (xalqların) hamısı türklərdəndir”(* و این همه کی ما یاد کردیم انواع ترکست)[67].

Ərəb istilası ərəfəsində Azərbaycanda yaşamış tayfalardan biri də kəngərlər olmuşdur. Konstantin Baqryanorodnıy öz əsərində yazır ki, peçeneqlər əvvəllər kəngər adlanırdı[68]. O, sözlərinə davam edərək yazır ki, onlar xəzərlər tərəfindən məğlub edildikdən sonra öz torpaqlarını tərk edərək türklərin torpaqlarında məskunlaşdılar.

Erkən orta əsrlərdə Azərbaycanın şimal hüdudlarında yaşamış tayfalardan bir də bulqarlar idi. Suriyalı Zaxariya Ritor onların adını Xəzər qapıları qarşısında yerləşmiş xalqlar sırasında qeyd edir[69].

Bir sıra erkən orta əsr qaynaqlarında o cümlədən, ərəbdilli mənbələrdə adı çəkilən türk tayfalarından biri də barsillərdir. Əl-Bəlazurinin və Qudama ibn Cəfərin verdikləri məlumatlardan aydın olur ki, Barsiliya Beşbarmaq dağı ilə Dərbənd keçidi arasında olmuşdur[70].

Bəzi yazılı qaynaqlar erkən orta əsrlər dövründə Azərbaycanda məskunlaşmış tayfalardan birinin də qıpçaqlar olduğunu ehtimal etməyə əsas verir[71].

Azərbaycanda yaşamış kadusilər haqqında müxtəlif fikirlər vardır. N.V. Piqulevskaya yazır ki, Antioxiyalı İoanın əsərində “kadusilər hunlardan sayılır”[72], yəni türkmənşəlidir.

---

[67] حدود العالم من المشرق الى المغرب كه بسال372 هجرى قمرى تليف شده است. بكوشش دكتر منوچهر ستوده، تهران، كتابخانه طهوري، 1983م. ص.- 88.

[68] Константин, Багрянородный. Об управлении империей / Текст, перевод и комментарий. Под ред. Г. Г. Литаврина, А. П. Новосельцева / Багрянородный Константин. – Москва: Наука, – 1989. – с.159.

[69] Пигулевская, Н.В. Сирийские источники по истории народов СССР / Н.В.Пигулевская. – Москва-Ленинград: Наука, – 1941. – с.165.

[70] البلاذري احمد بن بحيى بن جابر. فتوح البلدان. بيروت، دار الكتب العلمية،1420ه. ص،121: قدامة بن جعفر. الخراج و صناعة الكتابة. بغداد، دار الرشيد للنشر، 1981م. ص.- 193.

[71] Картлис Цховреба (История Грузии) / Под ред. акад. Р.Метревели. – Тбилиси: Изд-во Артануджи, – 2008. – с.20; Əliyeva L.A. Qıpçaqlar və Azərbaycan (etnogenez kontekstində). – s.22; Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. – s.106;

[72] Пигулевская, Н.В. Сирийские источники по истории народов СССР / Н.В. Пигулевская. – Москва-Ленинград: Наука, – 1941. – с.48.

Dissertasiyanın birinci fəslinin ikinci yarımfəsli **"Yeni türk tayfalarının Azərbaycana axınları və onun etnik nəticələri"** adlanır. Bu yarımfəsildə hunların, sabirlərin və xəzərlərin Azərbaycana axınları və ölkə ərazisində məskunlaşması prosesi araşdırılmışdır. Bir sıra Vətən və xarici ölkə tarixçilərinin əsərlərində erkən orta əsrlər Azərbaycan tarixinin müxtəlif problemləri araşdırılarkən hunlarla bağlı məsələlərə də toxunulmuşdur. Bu sahədə Y.R.Cəfərovun tədqiqatları, xüsusilə, qeyd edilməlidir[73].

Bəzi tədqiqatçılara görə, Azərbaycan türk xalqının formalaşmasında hunların Azərbaycana axınları böyük rol oynamışdır[74]. Hələ V əsrdə hunlar indiki Muğan ərazisində geniş şəkildə məskunlaşmışdılar. Həmin dövrdə Muğanın cənubunda Ağhun (Balasaqun) şəhəri salınmışdı. Əsəm əl-Kufi həmin ərazini Balasacan düzü adlandırır[75]. Bu zaman Arranda olan qalalardan biri Hunan qalası adlanırdı[76].

M.X. Şərifli "Xınalıq" tayfasını "Hunluq" adlandırır və belə hesab edir ki, Xınalıq kəndinin əsası IV əsrdə buraya gələn hunlar tərəfindən qoyula bilərdi[77]. V-VI əsrlərdə Azərbaycan torpaqlarında məskunlaşmış hunların sayının artması nəticəsində Kür və Araz çayları arasındakı yerlərdə "hunlar ölkəsi" yaranmışdı[78]. Bəzi katakombaların hunlarla bağlı olması ehtimalı da elmi ədəbiyyatda artıq səsləndirilmişdir[79].

---

[73] Джафаров, Ю.Р. Гунны и Азербайджан / Ю.Р.Джафаров. – Баку: Элм, – 1993.

[74] Насибо,в Ю.М. Этапы консолидации и формирования азербайджанского Народа // – Азебайджанцы, – Баку: Элм, – 1998. – с.35-38; Ağayev R.Ə. Hunlar və Azərbaycan xalqının formalaşmasında onların rolu // – Bakı: Pedoqoji Universitet Xəbərləri, – 2014. № 4. – s.185-191.

[75] الكوفي ابو محمد بن اعثم، كتاب الفتوح. الجزء السابع و الثامن. بيروت، 1991 م. ص.- 247.

[76] Kalankatlı, Moisey. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Müqəddimə, tərcümə, qeyd və şərhlərin müəllifi akademik Z.M.Bünyadovundur / Moisey Kalankatlı, Qoş Mxitar – Bakı: Avrasiya press, – 2006. – s.19.

[77] Şərifli, M.X. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. – s.34.

[78] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə. – s.172.

[79] Бернштам, А.Н. Очерки истории гуннов / А.Н. Бернштам. – Ленинград: Издательство ЛГУ, – 1951. – с.102-103.

Bir sıra ərəbdilli müəlliflər öz əsərlərində sabir türklərindən də bəhs edir Əl-Məsudinin onları xəzərlərlə eyniləşdirir: *“Xəzərləri türk dilində sabir, fars dilində xəzəran (xəzərlər) adlandırırlar. Onlar türkmənşəlidir”. (والخزر، ويدعون بالتركية سبير وبالفارسية خزران وهم جنس من الترك)*[80].

Bir sıra Suriya mənbələri IV-V yüzilliklərdə sabirlərin Dərbənd ətrafındakı ərazilərdə mövcudluğunu qeydə almışdır[81]. Onların böyük hissəsi Gəncəbasarda (Şakaşendə), Ağstafa ilə Şəmkir arasındakı ərazidə məskən saldı[82]. Muğan düzündə bütün orta əsrlər boyu yad edilən Biləsuvar, XIV yüzillikdə Güney Azərbaycanda Həmdullah Qəzvininin əsərində də rast gəlinən Tutsuvar, Qubadakı Qalasuvar adları suvarlardan (sabirlərdən) yadigar qalmışdır. S.B.Aşurbəyliyə[83] görə, “bilə” sözü “yer”, “şəhər” deməkdir. Şabran şəhərinin Sabran adlanması və bu adın sabirlərlə bağlı olması haqqında da fikirlər mövcuddur[84]. İbn Xordadbehin əsərinin nüsxələrindən birində “Şabran” əvəzinə “Sabran” (السابران ) yazılmışdır[85]. Qeyd etmək lazımdır ki, Xaçmaz rayonu ərazisində rast gəlinən Suvar, Sabiroba yer adlarının da məhz sabirlərlə bağlı olması ehtimal olunur[86].

Azərbaycan türklərinin etnogenezində xəzərlərin böyük rolu olmuşdur. Bu tayfa heç bir şübhə doğurmayan xalis türk tayfalarındandır[87]. Şimali Azərbaycan uzun müddət xəzərlərin əlində olduğuna görə ərəblər bəzən bu ərazini “Xəzər ölkəsi” adlandırırdılar. Məsələn, ət-Təbəri I Xosrovun dövründə yaradılmış

---

80 المسعودي. كتاب التنبيه و الاشواف، ليدن،1967. ص-.83.

81 Пигулевская, Н. В. Сирийские источники по истории народов СССР. с.165.

82 Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. – s.64; Агаев Р.Э. Поселение тюркских племен в Азербайджане и отражение этого процесс в топонимике страны // – Волгоград: Вестник ВолГУ, Серия 4, История. Регионоведение. Международные отношение, – 2017. № 4, – с. 46-55.

83 Aşurbəyli, S.B. Şirvanşahlar dövləti. – s.76.

84 Vəliyev (Baharlı), M.H. Azərbaycan: fiziki, coğrafi, etnoqrafik və iqtisadi oçerk / M.H.Vəliyev (Baharlı). – Bakı: Azərnəşr, – 1993. – s.36; Мирзазаде Ч.Х. Топонимы Азербайджана в средневековых арабских географических источниках / Ч.Х.Мирзазаде. – Баку: Элм, – 1988. – s.68-69.

85 ابن خردادبه ابو القاسم عبد الله، كتاب المسالك و الممالك، ليدن،بريل، 1889، ص-. 123.

86 Aşurbəyli, S.B. Şirvanşahlar dövləti. – s.28.

87 Heyət, C. Türk dili və ləhcələrinin tarixinə nəzər. – s.21.

Azərbaycan sepəhbudluğundan bəhs edərkən onu “Xəzər ölkəsi” *( هي بلاد الخزر – “o, Xəzər ölkəsidir”)* adlandırır[88]. Əl-Bəlazuri və Qudama ibn Cəfər Qəbələ şəhərini belə təqdim edir: *“Qəbələ şəhəri, o, (elə) Xəzərdir”[89] (ومدينة قبلة وهي الخزر ).* İbn Miskəveyhin əsərində Azərbaycan ərazisinə münasibətdə *“şimal nahiyələrində (şimal tərəfdə) olan türklər” (الترك الذين في ناحية الشمال )* və “xəzərlər”, “xəzər türkləri” ifadələrinə ayrı-ayrılıqda rast gəlinir[90].

İlkin yazılı qaynaqlardan bəlli olur ki, artıq VII əsrin 20-ci illərindən Şimali Azərbaycan türklərin və xəzərlərin hakimiyyəti altında idi və 628-629-cu illərdə albanlar Albaniyanı “xəzər xaqanının əbədi mülkü” sayırdılar[91]. Xəzərlərin Azərbaycan torpaqlarında qalma müddəti də tarixşünaslıqda həmişə mübahisə obyekti olmuşdur[92]. Göründüyü kimi xəzərlərin tarixi Azərbaycan xalqının tarixi ilə sıx şəkildə bağlıdır. Onların Azərbaycan torpaqlarında varlığını toponimik materiallar da sübut edir[93].

Birinci fəslin üçüncü yarımfəsli **“Azərbaycan tarix elmində “alban” problemi”** adlanır. Tarixi ədəbiyyatda bütün Albaniya əhalisinin, yəni ümumi şəkildə “albanlar” şəklində təqdim edilən etnosların mənşəyi və dili haqqında müxtəlif fikirlər mövcuddur[94]. XX əsr Sovet tarixşünaslığında albanların qafqazdilli olduğunu iddia edən bütöv bir tədqiqatçılar (A.Q.Şanidze, Q.A.Melikişvili, K.A.Klimov, K.V.Trever, İ.M. Dyakonov, S.T.Yeremyan və başqaları) ordusu var idi. Lakin onların tədqiqatlarında bu iddianı sübut edəcək heç bir tutarlı fakta rast gəlinmir.

---

88 الطبري ابو جعفر محمد بن جرير، تاريخ الامم و الملوك، الجزء الثالث، ص-.92.

89 البلاذري. فتوح البلدان، ص.120.: قدامة بن جعفر. الخراج و صناعة الكتابة، ص-.322.

90 ابن مسكويه. تجارب الامم. الجزء السادس بيروت، 1421م، ، ص-.134.

91 Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə.., s.53.; Kalankatlı, Moisey. Albaniya tarixi.., s.118.

92 Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə.., s.54-55. Yenə onun: О длительности пребывания хазар Албании в VII-VIII вв..,c.21-25.

93 Qeybullayev, Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. – c.204.

94 Məmmədov, T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. – s.53; Ağayev R.Ə. Bir daha Albaniya və albanlar haqqında // – Bakı: Bakı Dövlət Universitetinin İlahiyyat fakultəsinin Elmi Məcmuəsi, – 2017. № 28, – s. 371-381.

F.Kırzıoğlu, Ş.Kaya və A.Seferoğlu kimi Türkiyə tədqiqatçıları albanları skif tayfa ittifaqına daxil olan türkmənşəli xalqlar sırasına aid etmişlər[95].

Tarixşünaslıqda yanlış bir yanaşma – Albaniya tarixini qədim türklərin tarixinə yaxın buraxmamaq "xəstəliyi" mövcuddur. Lakin nəinki ərəb-fars mənbələri, eləcə də erməni və gürcü mənbələri əsasən "Aqvan" şəklində təqdim etdikləri Şimali Azərbaycan torpaqlarında ayrı-ayrılıqda "xəzər" və "hun" adları ilə yanaşı, "türklər" ifadəsini də dönə-dönə işlədirlər. Bütün bunları əsas götürən mühacir Azərbaycan ədəbiyyatının nümayəndələrindən biri M.B.Məmmədzadə "Albaniyanın türk ölkəsi" olduğunu bildirir[96].

Beləliklə, mövcud tarixi qaynaqlar "alban" adının kökünü Qafqaz-İber və ya Hind-Avropa dil ailəsində axtarılmasının elmi baxımdan prespektivsiz bir məsələ olduğunu aydın şəkildə göstərməkdədir.

Dissertasiyanın **"VII–IX əsrlərdə Azərbaycanın türk əhalisi"** adlı ikinci fəsli iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil "**Azərbaycanın yerli əhalisinin "türkləşməsi" konsepsiyası"** adlanır.

Azərbaycan türkləri və onların dili ilə bağlı XX əsrdə formalaşmış əsas mövcud konsepsiya belədir ki, guya bu xalq XI-XII əsrlərdə digər xalqları sıxışdıraraq aradan çıxarmış və onun dili hakim dilə çevrilmişdir. Bu zaman bir sıra suallar meydana çıxır: Nə üçün digər xalqlar və onların dilləri (talış, fars, ləzgi, tat və s.) deyil, məhz say etibarı ilə üstünlük təşkil edən, bugünkü Azərbaycan ərazisində yaşayan əsas əhali kütləsinin dili aradan çıxdı, gəlmələrin dili ilə əvəz olundu və türk dilinə çevrildi? Bu qəbildən olan sualların hamısının yalnız bir cavabı vardır: XI-XII əsrlərdə əsaslı şəkildə hər hansı bir etnik-dil dəyişikliyi baş verməmiş, heç bir yeni xalq və dil yaranmamışdır. Azərbaycan ərazisinə gələn səlcuqlar isə burada, az-çox fərqlə, onlar kimi danışan türkdilli xalqla qarşılaşmışdır[97].

---

[95] Nəcəf, Ə.N. Hun minilliyi (b.e.ə. IV – b.e. VI əsrlərdə türk dünyası). – s.192.

[96] Məmmədzadə, M.B. Azərbaycan tarixində qədim türk Albaniya //M.B.Məmmədzadə // – Bakı: Azərbaycan, – 1989. № 10. – s. 118-130.

[97] Ağayev, R.Ə. Səlcuqlara qədərki dövrdə Azərbaycanda türklərin varlığına dair faktlar // – Bakı: Tarix və onun problemləri, – 2015. № 2, – s. 28-37.

Səlcuqlar yerli əhalinin etnik tərkibini dəyişmək qüdrətinə malik deyildilər. Səlcuqlar kütləvi şəkildə Azərbaycanın cənub və şimal torpaqlarına gələnə qədər artıq Nişapur, Həmədan, Rey, İsfahan, Bağdad kimi əlverişli mövqeyə malik olan bir sıra şəhərləri ələ keçirmişdilər. Əgər səlcuqların istilası etnik və dil dəyişikliyinə səbəb olsa idi, bu zaman yuxarıda adı çəkilən və Azərbaycandan əvvəl ələ keçirilən ərazilər daha üstün şəraitə malik olardı. Təsadüfi deyil ki, Səlcuq dövlətinin paytaxtlarından (Nişapur, Rey, İsfahan) heç biri Azərbaycan şəhərləri sırasına daxil deyildi.

Beləliklə, tarix elmində hakim mövqe tutmaqda davam edən konsepsiya – səlcuqların gəlişi ilə Azərbaycan əhalisinin etnik tərkibinin və onun dilinin dəyişməsi haqqında konsepsiyası elmi baxımdan yanlışdır və qəbul edilməzdir.

İkinci fəslin ikinci yarımfəsli **“Azərbaycan türkləri”** adlanır. Bəhs olunan dövrdə Azərbaycanda türk etnoslarının üstünlüyü ayrı-ayrı adacıq (anklav) şəklində olan kiçik boylarla deyil, mənbələrdə hələ qədim dövrlərdən adı çəkilən türk toplumları və buraya erkən orta əsrlərdə sonradan gəlmiş və yerli türklərlə qaynayıb-qarışmış digər türksoylu tayfalar – hunlar, sabirlər, xəzərlər tərəfindən təmin edilmişdi. İlkin yazılı qaynaqlarda rast gəlinən bir sıra məlumatlar türklərin indiki Azərbaycan coğrafiyasında varlığının İslam dininin meydana gəlməsindən və səlcuqların yürüşlərindən çox-çox əvvələ təsadüf etdiyini göstərir.

Ət-Təbərinin əsərində türklərin Azərbaycanda qədim dövrdən yaşaması haqqında məlumata rast gəlirik[98]. Bələminin əsərində həm Azərbaycanda, həm də Mavərənnəhrdə türklərin yaşamasına işarə edilir. Belə ki, onun əsərində “Azərbaycan türkləri”[99] (*torkan Azərbadqan –تركان اذربادگان*) və *“Məvaraunnəhr türkləri”*[100] *(torkan Məvarau-n-nəhr-ماوراءالنهر تركان* ) ifadələrəinə ayrı-ayrılıqda rast gəlinir.

---

[98] Ağayev, R.Ə. Ət-Təbəri Azərbaycan türkləri haqqında // – Bakı: Geostrategiya, – 2016. № 5, – s.16-20.

[99] بلعمي، ابو علي محمد. تاريخ بلعمي،تهران، 1353، ص- 681.

[100] Yenə orada. – s.942.

Ət-Təbərinin[101], ibn Miskəveyhin[102] əsərlərində Dərbənd şəhərinin Azərbaycanın şimal sərhəddi olmasına və Dərbəndə qədər uzanan torpaqlarda türklərin yaşamasına dəlalət edən çoxsaylı faktlara rast gəlirik[103].

Nəşvan əl-Himyəri Azərbaycanı türk ölkəsi adlandırır[104]. Oxşar epizoda bir qədər fərqli şəkildə, "Kitab ət-Tican" əsərində də rast gəlirik. Müəllif Yəmən ordusunun *"türk ölkəsinin içərilərinə doğru irəlilədiyini" (اوغل في بلد الترك), "Türk şəhəri Bab"da (باب مدينة الترك)* qarşı-qarşıya olan əzəmətli qaya üzərində bu yürüş haqqında kitabə həkk edildiyini yazır[105].

Ət-Təbəri qədim dövrdə olduğu kimi Ərəb xilafəti dövründə də Azərbaycanın türklərin əlində olduğuna işarə edir: *"ər-Raiş Azərbaycan ərazisində türklərin üzərinə hərəkət etdi və o (Azərbaycan), o zaman onların (türklərin) əlində idi (فدخل على الترك ارض اذربيجان و هي في ايديهم يومئذ)*[106].

"Kitab ət-tican" əsərində I Müaviyənin Übeyd ibn Şəriyə ilə dialoqlarından biri aşağıdakı kimidir:

*قال معاوية: و ما بال آذربيجان لله أنت؟. قال: له انها كانت من أرض الترك و اجتمعوا له.*

Tərcüməsi: *"Müaviyə dedi": "Sən Allah, Azərbaycan (haqqında) fikrin nədir"? (Übeyd) dedi: "O, türk torpaqlarındandır. Onlar oraya toplaşmışlar (orada məskunlaşmışlar)"*[107].

I Müaviyənin Übeyd ibn Şəriyə ilə başqa bir dialoqu isə belədir:

---

101 الطبري ابو جعفر محمد بن جرير، تاريخ الامم و الملوك ،الجزء الثامن، ص- 67.

102 ابن مسكويه. تجارب الامم. الجزء السادس ، ص- 278.

103 Ağayev, R.Ə. Ərəb Xilafəti dövründə "Azərbaycan" tarixi-coğrafi anlayışı və onun hüdudları // "Azərbaycanşünaslığın aktual problemləri". Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş konfransın Materialları, 2 hissədə, I hissə. Bakı: – 5-7 may, – 2015, – s. 49-52; Yenə onun; Ağayev, R.Ə. İbn Miskəveyhin "Kitab təcarib əl-uməm" əsəri Azərbaycan əhalisi haqqında // – Bakı: Tarix və onun problemləri, – 2015. № 3, – s. 11-17.

104 الحميري نشوان بن سعيد. ملوك حمير و اقيال اليمن بيروت 1978 م، ص- 65.

105 وهب بن منبه. كتاب التيجان في ملوك حمير، صنعاء، 1979، ص- 65-66.

106 الطبري ابو جعفر محمد بن جرير، تاريخ الامم و الملوك ،الجزء الاول، ص- 197-198.

107 وهب بن منبه. كتاب التيجان في ملوك حمير، ص- 416.

*قال معاوية: وما الترك و آذربيجان؟ قال عبيد: هما بلادهم يا أمير المؤمنين.*

Tərcüməsi: *"Müaviyə dedi": "Azərbaycan və Türk nə deməkdir?". Übeyd dedi: "Ya əmirəlmöminin, hər ikisi onların ölkəsidir*[108].

Ət-Təbərinin[109] əsərində h.89-cu (707-ci) ilə aid aşağıdakı sözlərə rast gəlirik:

*"غزا مسلمة بن عبد الملك الترك حتى بلغ الباب من ناحية آذربيجان ففتح حصونا و مدائن هنالك "*

Tərcüməsi: *"Məsləmə ibn Əbdu-l-Malik türklərə qarşı yürüş etdi, Azərbaycan tərəfdən əl-Baba çatdı və orada qalalar və şəhərlər fəth etdi".*

Burada eyni anda iki fakt öz əksini tapmışdır: Azərbaycanın şimal hüdudunun Dərbənd olması və Azərbaycanda türklərin məskunlaşması.

Azərbaycanın şimal hüdudlarının Dərbəndə qədər uzanması və türklərin məskunlaşması  haqqında ilk məlumatlardan birinə Xəlifə ibn Xəyyat əl-Usfurinin əsərində rast gəlirik[110]. O, yazır:

*فغزا مسلمة سنة احدى و تسعين الترك حتى بلغ الباب من نحواذربيجان*

Tərcüməsi: *"91-ci (709-cu) ildə Məsləmə türklərə qarşı yürüş etdi və Azərbaycan tərəfdən əl-Baba çatdı".*

Əl-Usfuri əsərinin başqa bir yerində yazır ki, h.104-cü (722-ci) ildə Bələncəri ələ keçirən əl-Cərrah Varsana qayıtdı. Müəllif əsərinin həmin hissəsində olduqca maraqlı məlumata rast gəlinir:

*ثم سار الجراح الى الاتراك و هم اربعون اهل بيت، فسالوه الموادعة على ان يكونوا معه على الخزر.*

Tərcüməsi: *Sonra əl-Cərrah türklərin üzərinə hərəkət etdi. Onlar 40 evdən (ailədən) ibarət idi. (Türklər) ondan (əl-Cərrahdan),*

---

108 Yenə orada. – s.449.

109 الطبري ابو جعفر محمد بن جرير، تاريخ الامم و الملوك ،الجزء الثامن، ص- 67.

110 العصفري خليفة بن خياط. تاريخ خليفة بن خياط ، ص- 303.

*xəzərlərə qarşı onunla birlikdə olmaq şərti ilə, barışıq istədilər"*[111].

Əl-Cərrahın türklərin sülh təklifini qəbul etdiyini yazan əl-Usfuri həmin yaşayış məskəninin dəqiq yerini və adını göstərmir. Göstərilən epizod türkmənşəli xəzərlərlə yanaşı, xüsusi olaraq "türk" adlanan etnosların varlığını göstərməklə, Azərbaycan ərazisinə münasibətdə tarixi mənbələrdə tez-tez adı çəkilən, ərəblərlə döyüşən türklərin yalnız xəzərlərdən ibarət olmadığını bir daha göstərir.

Xəlifə ibn Xəyyat əl-Usfurinin əsərində bu qəbildən olan digər faktlara da rast gəlinir.[112]

"Mucməl ət-təvarix va-l-qasas" adlı farsdilli mənbədə də türklərin qədim dövrlərdən Azərbaycanda yaşamasına işarə edilir[113].

İbn Xəldunun əsərində VII-VIII əsrlərdə Tiflis nahiyəsinin türklər tərəfindən məskunlaşdırılması haqqında maraqlı faktlara rast gəlinir[114].

Bizans, erməni-gürcü mənbələri də türklərin tərəfindədir. Gürcü mənbələrində qədim dövrlərdən başlayaraq "türklərlə gürcülər arasındakı qarşılıqlı dostluq münasibətlərindən" bəhs olunur[115]. Həmin mənbələrdə Azərbaycan ərazisinə münasibətdə "türklər", "xəzərlər", "buntürklər" kimi adlara dəfələrlə rast gəlinir. Feoflikat Simokatta türkləri "barbar" adlandırır və yazır ki, onlar bizim tarixçilərin Araks adlandırdığı çayın sahillərində yaşayırlar və həmin çayı Əras adlandırırlar[116].

Toponimik materiallar da türklərin Cənubi Qafqazda qədim dövrlərdən yaşaması haqqında fikir söyləməyə imkan verir[117].

---

111 Yenə orada. – s.330.

112 Ağayev, R.Ə. Xəlifə ibn Xəyyat əl-Usfurinin "Tarix" əsəri Azərbaycan haqqında // Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı qəhrəmanı Ziya Musa oğlu Bünyadovun xatirəsinə həsr olunmuş "Müasir şərqşünaslığın aktual problemləri" ("Ziya Bünyadov qiraətləri") mövzusunda Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: – 16-17 oktyabr 2017, – s.19-25.

113 Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə. – s.174.

114 ابن خلدون عبد الرحمن بن محمد. تاريخ. الجزء الثالث بيروت، 1421ه ، ص- 111.

115 Картлис Цховреба (История Грузии). – с.19.

116 Симокатта, Феофликат. История / Перевод С.П.Кондратьева / Симокатта Феофликат. – Москва: Наука, – 1957. – с.78.

117 Алиев, К.Г. К вопросу о племенах Кавказской Албании (отдельный оттиск) / К.Г.Алиев. – Москва: Наука, – 1964. – с.6.

Dissertasiyanın III fəsli **“Ərəb xilafəti dövründə Azərbaycanın qeyri-türk əhalisi” adlanır** və üç yarımfəslidən ibarətdir. Birinci yarımfəsil **“İranmənşəli əhali”** adlanır. Orta əsr mənbələrinin verdiyi məlumatlara görə, Sasanilər və Ərəb xilafəti dövründə Azərbaycan ərazisində yaşamış irandilli etnoslar və ya əhali qrupları əsasən aşağıdakılardan ibarət olmuşdur: 1. Siyabiclər və ya siyasicilər; 2. Tatlar; 3. Talışlar; 4. Kürdlər; 5. Parslar; 6. Deyləmilər. Adı çəkilən irandilli xalqlar say etibarı ilə çox az idi. Onların bir çoxunun (tatlar, talışlar, deyləmilər, parslar) Ərəb xilafəti dövründə Azərbaycanda yaşaması haqqında mənbələrdə məlumata bilavasitə rast gəlinmir[118]. Bu məlumatları yalnız dolayısı ilə əldə etmək mümkündür.

Bir sıra ərəbdilli müəlliflərin (əl-Bəlazurinin, Qudama ibn Cəfər və s.) verdiyi məlumatlara görə, sasanilər tərəfindən Dərbənd və ətraf ərazilərə köçürülən tayfalardan biri də siyasicilər adlanırdı[119].

Bir sıra ərəbdilli mənbələr (əl-Bəlazuri, ibn Xordadbeh, əl-Qərnati, ibn əl-Fəqih) ərəb işğalları dövründə Azərbaycan ərazisində fəth edilən yerlər sırasında Taylasanın adını çəkirlər. Tədqiqatçılar belə hesab edirlər ki, Taylasan dedikdə “Talışan”, yəni talışların yaşadıqları ərazi başa düşülür[120].

Bir sıra tədqiqatçılara görə, iranmənşəli əhaliyə aid edilən tat adı əvvəllər müəyyən bir etnosun adını deyil, həyat tərzini, sosial vəziyyəti əks etdirirdi[121]. Bəzi mənbələrə görə, tat adını bu etnosa türklər vermişdir[122]. M.X.Şərifli belə hesab edir ki, X əsrədək “tat”

---

[118] Ağayev, R.Ə. Ərəb Xilafəti dövründə Azərbaycanın İrandilli əhalisi // Aida İmanquliyevanın 75 illik yubileyinə həsr olunmuş “Şərqşünaslığın Aktual Problemləri” mövzusunda Respublika Elmi Konfransının Materialları, – Bakı: – 2014, – s. 313-315.

[119] البلاذري. فتوح البلدان، ص.120-121.: قدامة بن جعفر. الخراج و صناعة الكتابة، ص- 323.

[120] Vəlixanlı, N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. – s.16.

[121] Савина, В.И. Этнонимы и топонимии Ирана // – Москва: Ономастика Востока, – 1980. – с.143.

[122] Kaşğari, M. Divanü Luğat-it-Türk tercümesi. Çeviren Besim Atalay: [2cilddə] / M.Kaşğari. – İstanbul: TTK Basımevi, – c. 1. – 1985. – s. 349-351.

sözü olmamışdır[123]. Ərəbdilli yazılı mənbələrdə adı çəkilən irandilli etnoslardan biri də kürdlərdir. “Kürd” sözünün mənası haqqında müxtəlif fikirlər vardır[124]. Mənbə materiallarının araşdırılması göstərir ki, kürdlər, əsasən, köçəri həyat tərzinə üstünlük vermişlər. Elə buna görə də bəzən köçəri həyat tərzi sürən digər tayfalara da ümumi şəkildə “kürd” deyilirdi.

İlkin yazılı qaynaqlarda parslar haqqında məlumatlara da rast gəlinir.[125] Bu adın mənşəyi ilə bağlı müxtəlif fikirlər vardır və tədqiqatçılar əksəriyyəti onun iranmənşəli olduğunu qeyd edirlər.

Ərəbdilli mənbələrdə indiki Cənubi Azərbaycan və ona bitişik ərazilərdə yaşayan deyləmlilərdən də bəhs edilmişdir[126].

Üçüncü fəslin **ikinci yarımfəsili “Qafqazmənşəli əhali” adlanır.** Azərbaycan ərazisində yaşayan qafqazdilli etnik azlıqlardan biri də udinlərdir. K.V. Trever udinləri utilərlə eyniləşdirir[127]. V.F. Minorski udi dilini uti dilinin qalığı və alban dilinin varisi olması ehtimalını irəli sürür[128]. T.M. Məmmədov utilərin udinlərlə eyniləşdirilməsi və heç bir fərq qoyulmamasını yanlış  hesab edir[129]. Udinlərin daha sonralar monqol tayfalarının arasında Azərbaycana gəlməsi haqqında fikirlər də mövcudur[130].

IX-X əsrlərdə yaşamış demək olar ki, bütün ərəbdilli müəlliflərin əsərlərində “Ləkz ölkəsi”, “ləkzlər” və s. bu kimi ifadələrə rast gəlinir. Tədqiqatçıların böyük əksəriyyəti “Ləkz ölkəsi”

---

123 Şərifli, M.X. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. – s.37.

124 Kürtler (Tarih, toplum, din) / Proje Editörü Prof. Dr. A.Demircan, Tarih Bölümü Editörü Doç.Dr. M.Akbaş – İstanbul: Nida, – 2015. – s. 43-44.

125 Фрай Р. Наследие Ирана / Р.Фрай .– Москва: Восточная литература, 2002. – с.76-77.

126 Минорский, В.Ф. История Ширвана и Дербента X – XI веков / В.Ф. Минорский. – Москва: Издатеьство Восточных Литературы. – 1963. – с.32.

127 Тревер, К.В. Очерки по истории и культуре Кавказской  Албании / К.В. Тревер. –  Москва-Ленинград: Издательство АН СССР, – 1959. – с.46-66.

128 Минорский, В.Ф. История Ширвана и Дербента X—XI веков. – с.29.

129 Məmmədov, T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə.., s.56-59.

130 Cavadov, Q.C. Udilər (tarixi-etnoqrafik tədqiqat) / Q.C.Cavadov, R.Ə.Hüseynov – Bakı: Azərbaycan, – 1996. – s.15.

ifadəsini "Ləzgi ölkəsi" ifadəsi ilə eyniləşdirir və ləkzləri ləzgilər hesab edirlər[131].

"Alban tarixi"ndə, eləcə də erməni və gürcü mənbələrində Albaniyanın şimal-şərqində yaşadığı güman edilən lpin, sliv və ciqb tayfalarının adları çəkilir. Q.Ə.Qeybullayevə görə, lbinlər avarların Albaniyada yaşayan hissəsinin, silvlər Dağıstanda yaşayan hissəsinin etnik adlarıdır. Ciqblər isə indiki saxurlardır, onlar indi özlərinə yixbı deyirlər. O, belə hesab edir ki, mənbələrdə I əsrdən adı çəkilən İori çayının adı avar dilindədir[132].

İbn Rusta Sərir hakimini "avar" (اوار ) adlandırır[133]. Sərir hakiminin "avar" adlandırılmasını Əbu Səid Gərdizi də təsdiq edir[134].

Ərəbdilli mənbələrdə "təbərsaran" adlandırılan əhali qrupundan da bəhs edilir. Əl-Qərnatinin məlumatı "təbasaranlıların da ləzgilər olması haqqında" fikrin doğru olmadığını göstərir[135].

Ərəbdilli mənbələrdə xınalıqlar, qrızlar, haputlar, ingiloylar, saxurlar və buduqlar haqqında tutarlı məlumata, hələlik rast gəlinməmişdir.

Üçüncü fəslin sonuncu yarımfəsli **"Digər əhali qrupları"** adlanır. Müxtəlif dillərdə yazılmış ilkin yazılı qaynaqlarda Ərəb xilafəti dövründə Azərbaycanda yaşayan və yaxud Azərbaycan ərazisi ilə sıx təmasda olan və mövcud dil ailələrinin heç birinə daxil edilməyən bəzi etnosların adlarına rast gəlinir. Onların sırasında sanarlar, siyavurdilər və lpinlər, xüsusilə, qeyd edilməlidir.

Sanarlar haqqında məlumata bəzi antik müəlliflərin əsərlərində də təsadüf olunur[136]. Gürcü və erməni mənbələrində də sanarlar

---

131 Vəlixanlı, N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında.., s.64.; Минорский В.Ф. История Ширвана и Дербента X—XI веков. – с.50.

132 Qeybullayev, Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. – s.173.

133 Vəlixanlı, N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. – s.166.

134 الجرديزي، زين الاخبار، القاهرة، 2002 م، ص– 396.

135 Vəlixanlı, N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan Haqqında. – s.160.

136 Агаев, Р.Э. Сведения арабоязычных первоисточников о санарах // – Москва: Вопросы Истории, – 2018. №11, – с. 158-166.

haqqında məlumatlara rast gəlinir[137].

Sanarlar haqqında daha geniş məlumata ərəb və farsdilli müəlliflərin əsərlərində rast gəlmək mümkündür. "Hüdud əl-aləm"də Sanarlar haqqında məlumata rats gəlinir[138].

Lpin (lbin, lupen) adına həm antik, həm də orta əsr müəlliflərinin əsərlərində rast gəlinir. F.C.Məmmədovaya görə, lpinlər Samur çayının mərkəzi hissələrindən Alazan çayı vadisinədək uzanan bir ərazidə yayılmışdılar[139].

IX-X əsrlərdə yaşamış bir sıra ərəbdilli müəlliflər (Əl-Bəlazuri, Qudama ibn Cəfər, ibn əl-Fəqih, əl-Məsudi) öz əsərlərində Gəncə ilə Tiflis arasındakı ərazilərdə əs-siyavurdiya adlandırılan, qayda-qanun bilməyən, qaçaq-quldurluqla məşğul olan tayfaların da adını çəkirlər[140]. Həmin siyavurdilər sonralar Şəmkir şəhərini qarət etmişdilər[141]. Əl-Məsudinin yazdığına görə, Əbu Musa dağlarında (Qarabağ dağları) müxtəlif tayfalar məskunlaşmışdı[142]. Bu dağlar Aran xalqlarından olan bir tayfanın məskəni idi[143].

"Albaniya tarixi"ndə adlarına rast gəlinən ərgeşlər və çilblərin də etnik mənsubiyyəti qeyri-müəyyəndir[144]. K.V. Trever də onların etnik kimliyinin müəyyən edilməsinin çətin olduğunu qeyd etmişdir[145]. Çilblərin silvlərlə eyni olması haqqında fikirlərdə vardır. Silvlər, eləcə də ciqblər bəzi müəlliflər tərəfindən qafqazdilli xalqlar sırasına aid edilmişdir[146].

Dissertasiyanın IV fəsli **"Xilafətin Azərbaycanda həyata keçirdiyi köçürmə siyasəti və onun etnososial nəticələri"** adlanır

---

137 Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə. – s.15.

138 حدود العلم من المشرق الى المغرب، ص- 162 .

139 Məmmədova, F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası (e.ə. III əsr-eramızın VIII əsri). – s.83.

140 المسعودي. مروج الذهب و معادن الجوهر، الجزء الاول، بيروت، 2005 م، ص- 157.

141 Vəlixanlı, N.M.. Azərbaycan XII – XII əsrlərdə. – s.161; Ağayev R.Ə. Ərəbdilli mənbələr siyavurdilər haqqında // – Bakı: Bakı Dövlət Universitetinin Xəbərləri, – 2017. №4, – s. 86-93.

142 Велиханова, Н. М. Изменение исторической географии Азербайджана в результате арабского завоевания.., s.48.

143 Vəlixanlı, N.M.. Azərbaycan XII – XII əsrlərdə. – s.107.

144 Kalankatlı, Moisey. Albaniya tarixi. – c.28.

145 Тревер, К.В. Очерки по истории и культуре Кавказской Албании.– s.47.

146 Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. – c.154-156.

və üç yarımfəsildən ibarətdir. Həmin fəslin birinci yarımfəsli **"Köçürmə siyasətinin birinci mərhələsi"** adlanır. Burada əsas diqqət Raşidi xəlifələri (632-661) və Əməvilərin (661-750) Azərbaycanda həyata keçirdiyi köçürmə siyasətinə yönəldilmişdir. Ərəblər Azərbaycanda həyata keçirdiyi köçürmə siyasətində yalnız ərəblərdən deyil, türk və qeyri-türk tayfalardan da istifadə edirdilər[147]. Köçürülmə siyasətinə əsas məqsəd ərəblərin hakimiyyətini möhkəmləndirmək və İslamın daha qəti şəkildə bərqərar olmasına yardım etmək idi.

Ərəblər tərəfindən ərazilərin işğalı və məskunlaşdırılması prosesi əhəmiyyətli dərəcədə sürətlə getmişdir. Lakin İslamın bərqərar olması isə xeyli zaman almışdır. Ərəbdilli müəlliflər öz əsərlərində ərəblərin Azərbaycan və ətraf ərazilərə köçürülməsinə dair konkret faktlara geniş yer vermişlər[148]. Azərbaycana köçən ilk tayfalar müəyyən bir qrupa mənsub olmayıb, müxtəlif Ərəbistan (şimal, orta və cənub) tayfalarından, yəni qeysilər, nizarilər və qəhtanilərdən ibarət idi. Lakin mənbələrin izlənməsi göstərir ki, hər halda Əməvilər dövründə şimal tayfalarına üstünlük verilmişdir[149].

Fütuhat başa çatdıqdan sonra daha çox əsgəri birləşmələr xilafətin şimal hüdudlarında yerləşdirilməyə başlandı. Elə bu dövrdə sonralar möhkəmləndirilmiş şəhərlərə çevrilən hərbi düşərgələr, dağ keçidlərində isə "bab" (qapı-darvaza) adlanan xüsusi məntəqələr yaradıldı[150].

IV fəslin ikinci yarımfəsli **"Köçürmə siyasətinin ikinci mərhələsi"** adlanır. Ərəb xilafətinin Azərbaycanda həyata keçirdiyi köçürmə siyasəti Abbasilər sülaləsinin hakimiyyəti dövründə də davam etdirildi. Lakin bu siyasətin məzmununda müəyyən dəyişikliklər özünü büruzə verdi. Şimal tayfalarının imtiyazları yox olmağa başladı. Abbasilər cənubdakı ərəb (Yəmən) tayfalarına arxalanaraq şimal tayfalarını tədricən Azərbaycan və Arrandakı

---

147 Ağayev, R.Ə. Sasanilər dövləti və Ərəb xilafətinin Azərbaycanda həyata keçirdiyi köçürmə siyasətində türk tayfalarının yeri // – Gəncə: Gəncə Dövlət Universiteti, Elmi Xəbərlər, – 1918. № 1, – s.223-229.

148 العصفري خليفة بن خياط. تاريخ خليفة بن خياط ، ص.151.: البلاذري. فتوح البلدان.ص- 127.

149 Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə. – s.164.

150 Vəlixanlı, N.M. Ərəb xilafəti və Azərbaycan.., s.39.

məskənlərindən çıxarmağa başladılar. Yəməndən olan cənub qəbilələri şimal qəbilələrindən olan nizarilərin yerlərini tutdular[151]. İbn Havqəlin əsərində bu köçürmə və onun nəticələri haqqında maraqlı məlumatlara rast gəlinir[152]. Əməvilərin tərəfdarları olan şimal tayfalarının Abbasilərə sadiq cənub tayfaları ilə əvəz olunması qaydaları Harun ər-Rəşidin (786-809) hakimiyyətə gəlməsindən sonra, əsasən, dayandırıldı[153]. Ərəblərin son qrupu Xəlifə əl-Məmunun (813-833) dövründə Arrana köçürülmüşdü[154].

Həm Əməvilər, həm də Abbasilər sülaləsinin hakimiyyəti dövründə Azərbaycana yalnız ərəblər deyil, digər xalqlar da köçürülürdülər. Onların arasında türklər üstünlük təşkil edirdi. Ərəblərin köçürmə prosesində farslardan da istifadə edilirdi[155].

IV fəslin üçüncü yarımfəsli **"Köçürmə siyasətinin etnososial nəticələri"** adlanır. Ərəb xilafəti dövründə çoxsaylı ərəb qəbilə və tayfalarının Azərbaycan ərazisinə köçürülməsi və ərəb dilinin yayılması əhalinin ərəbləşməsinə gətirib çıxara bilmədi. Bununla belə, ərəb istilası və onların burada həyata keçirdiyi köçürmə siyasəti Azərbaycanın iqtisadi-siyasi, etnik-mədəni və sosial-dini həyatında dərin iz buraxdı və bir sıra nəticələrə gətirib çıxardı. Ərəb dili yerli əhalinin dilinə təsir etsə də ibn Xəldunun qeyd etdiyi kimi, Misir, Şam kimi ölkələrdən fərqli olaraq, İraqdan "o tərəfdəki ölkələrdə bu dil qalıcı olmadı"[156]. İbn Havqəlin əsərində Azərbaycanda yaşayan ərəbmənşəli əhali haqqında bəhs olunarkən məhz bu fakta işarə edilir. İbn Havqəl qeyd edir ki, Daxərqan, Təbiz və Uşnu-Azəriyyəyədək və ətraf ərazilər "bəni Rudayni mülkləri" kimi məşhurdur. O, fikrini davam etdirərək bildirir ki, onlar ərəblərdən olmuş, lakin sonralar zəmanə onlardan üz çevirmiş, məğlub və qəhr

---

[151] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə. – s.165-166.; Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. – s.52-53.

[152] Ağayev, R.Ə. İbn Hövqəlin "Kitab surət əl-ard" əsəri Azərbaycan haqqında // – Bakı: AMEA Tarix İnstitutunun Elmi Əsərlər, – 2011. c.XXXIX, – s. 10-25.

[153] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə. – s.167.

[154] Yenə orada. – s.168.

[155] Ağayev, R.Ə. Sasanilər dövləti və Ərəb xilafətinin Azərbaycanda həyata keçirdiyi köçürmə siyasətində türk tayfalarının yeri. – s.123-129.

[156] ابن خلدون عبد الرحمن بن محمد. تاريخ. الجزء الاول. ص- 476.

olmuş, izləri itmiş, cüzi məlumatdan başqa onlardan bir əsər qalmamışdır[157].

Dissertasiyanın **"Ərəb xilafəti dövründə Azərbaycanda etnolinqivistik vəziyyət"** adlı V fəsli üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Azəri dili"** adlanır. Ərəbdilli müəlliflərin verdiyi məlumatlara görə, Ərəb xilafəti dövründə Azərbaycan ərazisində əhali tərəfindən istifadə olunan başlıca dillər "azəri" və "arran" dilləri olmuşdur. S.Ə.Kəsrəvi tarixi mənbələrin faktlarını təhrif edərək "azəri" dilinin iranmənşəli dil olduğunu göstərmişdir[158].

Ərəbdilli müəlliflər "azəri" dili ifadəsini etnik mənsubiyyətə görə deyil, coğrafi məfhuma görə işlətmişdir. Ərəbdilli mənbələrdə Azərbaycan əhalisinin dili ilə bağlı azəri, əzərbi, əzəriyyə, əzərbiyci ifadələrinə də yer verilmişdir. İlkin yazılı qaynaqlarda həmin ifadələr digər hallarda da işlənmiş və burada da coğrafi məfhum əsas götürülmüşdür. Məsələn, ibn Əbd əl-Munim əl-Himyərinin əsərində xəlifə Ömərin hakimiyyəti dövründən bəhs edilərkən aşağıdakı ifadəyə rast gəlirik: *"Azərbəycan – Azərbi ifadəsi ona aid edilir" (أذربيجان- ينسب اليها اذربي – Əzərbəycən-yunsəb ileyhə Əzərbi). Müəllif daha sonra yazır: "الصوف الاذربي منسوب الى اذربيجان" ("Əs-sufu-l-Əzərbi mənsubun ilə Əzərbəycən"), yəni "əl-Azərbi yunu Azərbaycana aiddir"*[159]. "Azəri" ifadəsin Azərbaycana nisbətdə işlədildiyini Əbu Mənsur əl-Cəvaliqi[160] və Yaqut əl-Həməvi[161] də təsdiq edir. Qacarlar sülaləsindən olan Nəsrəddin şahın (1848-1896) hakimiyyəti dövründə dörd görkəmli elm xadimi tərəfindən yazılmış "Name-ye Daneşvaran" adlı topluda da Azərbaycan əhalisinin dili olan "azərbiyyə" dili "türklərin dili" *(lüğət-e torkan - لغة تركان )* adlandırılmışdır[162].

---

157 ابن حوقل ابو القاسم النصبي. كتاب صورة الآرض. القسم الثانى. ص- 337.

158 كسروي سيد احمد. آذري يا زبان باستان آذربايگان، .تهران، 1304، ص- 10.

159 الحميري محمد بن عبد المنعم. الروض المعطارفي خبرالاقطار بيورت، 1975م. ص- 20.

160 الجواليقي ابو منصور، المعرب من الكلام الاعجمي على حروف المعجم . الطبعة الثانية بيروت، . دارالكتب،1969م، ص- 145.

161 الحموي ياقوت، معجم البلدان، المجلد الاول، بيروت، 1977، ص-128.

162 رئيس نيا رحيم، اذربايجان در سير تاريخ ايران، بخش اول ودوم. تبريز، 1368.ص-857.

Azəri dilinin iranmənşəli dil olması, tat və ya talış dilinin onun davamçısı olması haqqında ideya tərəfdarlarının arqumentləri (əgər belə demək mümkündürsə) tarixi faktların təhrif olunmasından başqa bir şey deyildir.

V fəslin ikinci yarımfəsli “**Arran dili”** adlanır. Ərəbdilli müəlliflərə görə, tarixi Azərbaycan ərazisində işlədilən ikinci geniş yayılmış dil “arran” və yaxud “arani” dili idi. Bu dil haqqında Əl-İdrisi[163], ibn Havqəl[164], əl-Müqəddəsi[165], Suriyalı Zaxariya Ritor[166] və başqaları məlumat vermişlər.

Arran dili ilə bağlı fikir söyləyən müasir tədqiqatçıların böyük əksəriyyəti bir-birini təkrar edərək, heç bir fakta istinad etmədən arran dilini udin dili ilə bağlamağa cəhd etmişlər. Bəzi İran tarixçiləri isə hətta bu dilin iranmənşəli dil olduğunu iddia edirlər[167].

Çox geniş yayılmış bir fikirə görə, alban əlifbası qarqar dili əsasında tərtib olunmuşdur. Bu zaman iddia tərəfdarları Mesrop Maştosun albanlar üçün əlifba yaratmaqdan ötrü Albaniya hökmdarı Arsvalen və patriarxı Ereminin yanına gəldiyini bildirən Moisey Xorenatsinin[168] və Musa Kalankatlının[169] məlumatına söykənirlər.

Diqqəti cəlb edən əsas cəhət budur ki, tədqiqatçılar alban (arran) dili ilə bağlı sualların cavablarını nəyin bahasına olursa-olsun türk dilindən kənarda axtarmağa çalışırlar. Ərəbdilli mənbələrin verdiyi məlumatlar və məntiqi mülahizələr bu dilin Qafqaz, iranmənşəli olmadığını birmənalı şəkildə bildirir. Burada yalnız bir çıxış yolu qalır: bu dili türk dilləri ilə bağlamaq. Bu ehtimalın doğruluğunu, yəni alban (arran) dilinin türk dili olması ehtimalını, onu qafqazmənşəli olmasını söyləyənlərin özləri dolayısı ilə qəbul etmişlər. Çünki onlar alban (arran) dilinin qarqar ləhcəsi əsasında tərtib olunmasında həmrəydirlər. Qarqarlar isə türkmənşəli xalqdır.

---

163 الشريف الادريسي،كتاب نزهة المشتاق في اختراق الافاق القاهرة، 1422.،ص- 686.

164 ابن حوقل ابو القاسم النصبي. كتاب صورة الآرض. القسم الثانى. ص- 376.

165 ألمقدسي المعروف بالبشاري، أحسن التقاسيم في معرفة الاقاليم، القاهرة، 1411، .ص- 378.

166 Пигулевская, Н. В. Сирийские источники по истории народов СССР. – с.165.

167 يحيى ذكا. رديابى زبانهاى ايران در قفقاز ، ص- 287.

168 Хоренский? Моисей. История Армении / Моисей Хоренский. – Москва: Типография В.А. Гатцукь, – 1893 – с.196.

169 Kalankatlı, Moisey. Albaniya tarixi. – s.35-37.

Yeri gəlmişkən qeyd edək ki, “Kitabi-Dədə Qorqud”da “Alpanlar başı Qazan (xan)” (الپن لر باشي قزان) [170] və *“Ağ-boz atlar çapdıran alpanlar gördüm” (اغ بوز اتلر چابدرالپنلر كرردم)*[171] kimi ifadələri ilə də qarşılaşırıq.

Beləliklə, həm Sasanilər, həm də ərəblər dövründə Arranda yadellilərə qarşı müqavimət göstərən başlıca qüvvələrin türklər olduğunu əsas götürsək, albanlar dedikdə elə buradakı türklər, alban (arran) dili dedikdə isə onların dili başa düşülə bilərdi.

Dissertasiyanın V fəslinin üçüncü yarımfəsli **“Xəzər dili və digər məhəlli dillər”** adlanır.

Ərəbdilli müəlliflər öz əsərlərində azəri və arran dilləri ilə yanaşı, Azərbaycan, Arran, Ərminiyyədə fars və ərəb dillərindən müştərək dil kimi istifadə edildiyini göstərir. Məsələn, əl-Müqəddəsi bildirir ki, Azərbaycan, Arran və Ərminiyyədə əhali arasında fars dilindən də istifadə olunur[172]. İbn Havqəl yazır ki, ərəb dilində yalnız *“tacirlər və əmlak sahibləri”* yaxşı anlayırlar[173].

Ərəb xilafəti dövründə Azərbaycan ərazisində xəzər dilindən də istifadə olunmuşdur. Xəzər əhalisinin dilindən bəhs edən ibn Havqəlin məlumatı çox maraqlı və ziddiyyətlidir[174]. İbn Havqəlin xəzər dili ilə bağlı söylədiyi oxşar məlumata əl-İstəxrinin əsərində də rast gəlirik[175]. Əl-İstəxri Dərbənd əhalisinin dilindən bəhs edərkən *“onlar çox güman ki, xəzər dilində danışırlar”*[176] ifadəsini işlədir. Əsəm əl-Kufi öz əsərində Azərbaycan ərazisində *“xəzər dilini gözəl bilən” (كنا فصيحاً بالخزرية – kənə fəsihən bi-l-xəzəriyyə)* Bərdik[177] və İbrahim ibn Asim əl-Uqeyli adlı şəxslərdən bəhs etmişdir[178].

---

170 Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər / tərt ed., S.Əlizadə – Bakı: Öndər, – 2004. – s.80.
171 Kitabi-Dədə Qorqud Ensiklopediyası / Red. hey. sədri Anar. – Bakı: Yeni nəşrlər evi, – c. 2. – 2000. – s.415.
172 Vəlixanlı, N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. –s.134.
173 ابن حوقل ابو القاسم النصبي. كتاب صورة الأرض. القسم الثانى. ص- 348.
174 Yenə orada. – s.393.
175 الاصطخري ابو اسهق ابراهيم بن محمد الفارسي. المسالك و الممالك، القاهرة، 1381،.ص- 130.
176 Yenə orada. – s.113.
177 الكوفي ابو محمد بن اعثم، كتاب الفتوح. الجزءالسابع و الثامن، ص- 246.
178 الكوفي، ابو محمد بن اعثم، كتاب الفتوح. الجزءالسابع و الثامن، ص- 247.

Orta əsr mənbələr toplusu “Kartlis tsxovreba”da (“Kartlinin həyatı”) bildirilir ki, savirlərin (sabirlərin) VI yüzillikdə və xəzərlərin VII yüzilliyin başlanğıcında basqınlarından sonra Kartlidə altı dildə, o cümlədən xəzər dilində danışmağa başladılar[179].

Bir sıra ərəbdilli mənbələr (əl-İstəxri, əl-Müqəddəsi, ibn əl-Fəqih, ibn Havqəl) Qafqaz dağları və ətraf ərazilərdə çoxsaylı dillərin mövcudluğundan xəbər verirlər. Bəzi müəlliflər hətta Qafqaz dağlarını “dillər dağı” ( جبل الالسن - “cibəlu-l-əlsuni”) adlandırırlar[180].

Qafqaz dağları və ətraf ərazilərdə müxtəlif dillərdə danışıldığını göstərən ibn Havqəl müasir oxucunu çaşdıraraq yazır: *"و يجمع الكثير منهم لسان واحيد"*

*Tərcüməsi: “Onların əksəriyyətinin ümumi bir dili vardır” və yaxud “onların əksəriyyətini ümumi bir dil birləşdirir”*[181].

Burada istər-istəməz E.Q.Veydenbaumun sözləri yada düşür. O yazır ki, orta əsrlərdə Azərbaycan dili öz sadəliyi ilə Cənubi Qafqazda beynəlxalq dilə çevrilmiş və Dağıstanda getdikcə daha çox dilləri sıxışdıraraq aradan çıxarmışdır[182].

Dissertasiyanın VI fəsli **“Ərəb xilafəti dövründə Azərbaycan əhalisinin sosial tərkibi”** adlanır və dörd yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **“Ərəb xilafəti dövründə “sosial təbəqə” anlayışı”** adalanır.

Ərəbdilli müəlliflərin əsərlərində Azərbaycan əhalisinin sosial tərkibi ilə bağlı məlumatlardan bəhs etməzdən əvvəl, onların bu məsələyə, yəni əhalinin sosial baxımdan müəyyən təbəqələrə bölünməsi məsələsinə münasibətini nəzərdən keçirmək lazım gəlir.

İslam dininin ilkin çağlarında insanlar doğrudan-doğruya yeni cəmiyyətdə kəskin ixtilafların aradan qalxacağına və nisbətən yaxşı həyat quracaqlarına böyük ümid bəsləyirdilər. Lakin hələ Ərəb xilafətinin ilkin dövrlərindən başlayaraq ictimai təbəqələşmə və bunun ardınca sosial ziddiyyətlər özünü göstərməyə başladı. Bir sıra ərəbdilli müəlliflərin əsərlərində Ərəb xilafəti dövründə mövcud

---

179 Картлис Цховреба (История Грузии). – с.20.

180 ابن سعيد المغربي. الجغرافييا، بيروت، 1970م. ص- 205.

181 ابن حوقل ابو القاسم النصيبي. كتاب صورة الآرض. القسم الثانى. ص- 349.

182 Вейденбаумь, Е.Г. Путеводитель по Кавказу / Е.Г.Вейденбаумь. – Тифлись: Типография Канцель, – 1988. – s.120.

olmuş təbəqələşməyə və ictimai bərabərsizliyə bəraət qazandırmaq cəhdləri vardır. Onların bir çoxu öz əsərlərində cəmiyyət üzvlərinin idarə edənlər və idarə olunanlardan ibarət olduğuna dönə-dönə işarə edirlər[183]. Əl-Məqrizinin öz əsərində insanları yeddi qrupa bölür[184]. İbn Xəldun isə insanların fəaliyyət sahəsinə, qazanc əldə etmək vasitələrinə görə sosial baxımdan dörd başlıca qrupa bölündüyünü yazır: 1. Dövlət idarəetmə sistemində çalışan məmurlar; 2. Əkinçiliklə məşğul olanlar; 3. Ticarətlə məşğul olanlar; 4. Sənətkarlığı özünə peşə seçənlər[185].

Əl-Məvardi (974-1058) özündən əvvəlki dövrlərə nəzər salaraq insanların dörd qrupa bölündüyünü və onların hər biri ilə necə davranmalı olduğunu göstərir[186]. Əl-Müqəddəsi cəmiyyətdə qarşılaşdığı adamlar sırasında sufilər, hakimlər, ədiblər, cahillər, müəzzinələr, tacirlər, əmirlər, əşrəflər, qazılar və başqalarının adlarını çəkir[187]. Əbu-l-Fəzl Beyhəqi[188] öz əsərində xəlifə Məmunun hakimiyyəti dövrünə aid təbəqələrə və onların səlahiyyətlərinə diqqət yönəldir.

VI fəslin II yarımfəsli **"Əhalinin hakim təbəqələrinin sosial tərkibi"** adlanır. Ərəb xilafəti dövründə Azərbaycan ərazisində yaşamış əhalini sosial baxımdan, əsasən, aşağıdakı kimi qruplaşdırmaq olar: 1.Hakim zümrələr; 2.Şəhər əhalisi; 3.Kənd əhalisi.

Hakim zümrənin başında əmir (vali) dayanırdı. Bütün hərbi və mülki hakimiyyət əmirin əlində cəmlənmişdi[189]. Əmirin iqamətgahı "dar əz-zəim" adlanırdı. Əmirin iqamətgahında xüsusi mühafizə xidməti var idi və mühafizəçiləri "hacib" (حاجب ), onların rəisi isə "hacibu-l-hicab" (حاجب الحجاب ) adlanırdı. Məsələn, Əsəm əl-Kufi öz

---

183 راوندي مرتضى ، تاريخ اجتماعي ايران، ص-211.

184 السود نزار عيون. نشوء و تطور الفكر النفسي الجتماعي عند العرب. 2014 ، ص- 121.

185 ابن خلدون عبد الرحمن بن محمد. تاريخ. الجزء الاول، بيرزت، 1421، ص- 480.

186 الماوردي ابو الحسن. قوانين الوزارة و سياسة. بيروت، دار الطليعة للطباعة و النشر، الطبعة الاول، 1979 م .ص- 144.

187 ألمقدسي المعروف بالبشاري، أحسن التقاسيم في معرفة الاقاليم، القاهرة، ص- 43-45.

188 Бейхаки, Абу-л-Фазл. История Масуда (1030-1041). Вступительная статья, перевод и примечания А.К.Арендса / Бейхаки Абу-л-Фазл. – Ташкент: Издательство АН Узбекской ССР, – 1962. – с.66.

189 Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə. – s.139.

əsərində Azərbaycan hakimlərindən əl-Hərəşinin hacibindən bəhs etmişdir[190]. Əmirin bilavasitə rəhbərliyi altında fəaliyyət göstərən şəxslər sırasında ilk növbədə amil (amil əl-xərac) və qazı (amil əs-salat) qeyd edilməlidir[191]. Vilayətlərdə, o cümlədən Azərbaycan və Arranda əmirdən sonra ikinci şəxs amil idi. Amil qazı ilə birlikdə əmirin ən yaxın köməkçisi sayılırdı[192]. Amil artıq əmirin yerlərdəki nümayəndəsi, həm də vergiyə nəzarət edən mülki hakim idi.

"Tarix-e Sistan" ("Seistan tarixi") adlı əsərdə Ərəb xilafətində h.211-ci (826-cı) ildə baş vermiş hadisələrdən bəhs olunarkən avan, məarif, məzalim rəhbəri kimi vəzifələr sadalanır[193]. Əsərdə VII əsrə aid hissab, cabi, mutəmid[194], IX əsrə aid müstəhiss, müstəxric terminlərinə də rast gəlinir[195].

Şəhər rəisi, muhtəsib, arif, məhəllə rəisləri, şurta, münhi və müşrif, sahibu hərəs, bərid rəisi, məliklər, patriklər, azadlar, mütəqəlliblər, din xadimləri də hakim təbəqənin nümayəndələri sırasına daxil idilər.

Üçüncü yarımfəsil **"Şəhər əhalisi"** adlanır. Ərəbdilli mənbələrin verdiyi məlumata görə, Ərəb xilafəti dövründəki Azərbaycan şəhərləri əsasən, iki qrupa bölünürdü: 1.Böyük şəhərlər (Birinci dərəcəli). 2.Nisbətən kiçik şəhərlər (İkinci dərəcəli)[196]. Artıq elmi ədəbiyyatda qeyd edildiyi kimi, Ərəb xilafəti dövründəki şəhərlər haqqında mənbələrin verdiyi məlumatları ümumiləşdirərək onları müasir anlamda sosial-iqtisadi baxımdan 3 kateqoriyaya bölmək olar: 1. Sosial təbəqələşmənin zəif olduğu aqrar tipli şəhərlər; 2. Sosial təbəqələşmənin mövcud olduğu, lakin kəskin

---

[190] Əl-Kufi, Əhməd ibn Əsəm. "Kitab əl-futuh" ("Fəthələr kitabı"). Azərbaycanın VII-IX əsrlər tarixinə dair çıxarışlar. Ərəbcədən tərcümə edəni, ön söz, qeyd və şərhlərin müəllifi Z.M.Bünyadov / Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə dair materiallar. – Bakı: Nurlan, – 2005. – s.45.

[191] Буниятов, З.М. Из истории Кавказской Албании VII-VIII вв. – с.167.

[192] Заходер, Б.Н. История Восточного средневековья (Халифат и Ближний Восток) / Б.Н.Заходер. – Москва: МГУ, – 1944. – с.33.

[193] Тарих-и Систан (История Сеистана) / Перевод, введение и комментарий Л.П.Смирновой. –Москва: Наука – 1974. – с.116,

[194] Yenə orada. – c.114.

[195] Yenə orada. – c.232.

[196] ابن حوقل ابو القاسم النصبي. كتاب صورة الآرض. القسم الثانى. ص- 334-335.

xarakter almadığı, əsasən, orta səviyyəli mülkiyyətçilərin yaşadığı sənətkarlıq və ticarət mərkəzi olan şəhərlər; 3. Sənət və ticarətin, əsasən, xarici bazara işlədiyi və təbəqələşmənin çox yüksək səviyyədə olduğu iri şəhərlər[197].

Ərəb xilafəti dövründə bütövlükdə şəhər əhalisi öz sosial statusuna, tərkibinə görə, aşağıdakı qruplara bölünürdü: 1.İnzibati-idarə sistemində təmsil olunan hakim zümrələr. 2.Sənətkarlar və tacirlər. 3.Əsasən şəhərin ətraf məhəllələrində məskunlaşan əkinçi-kəndlilər. 4.Onların heç birinə daxil olmayan müxtəlif kateqoriyadan ibarət əhali qrupları. Həmin qrupların hər birinin, xüsusilə birinci və ikinci qrupların daxilində müxtəlif dərəcələr var idi.

Göstərilənlərlə yanaşı, orta əsr qaynaqlarında şəhər əhalisi ilə bağlı daha iki ifadəyə də rast gəlinir. 1. Yerlilər; 2. Gəlmələr.

Şəhərlərdə hakim təbəqənin nümayəndələri olan dünyəvi və ruhani əyanlarla bərabər tacirlər, sələmçilər, əkinçiliklə əlaqəsini kəsmiş sənətkarlar və bir sıra müxtəlif əhali qrupları yaşayırdılar.

Ərəb xilafəti dövründə Azərbaycanda şəhər əhalisinin əksəriyyəti sənətkarlar və tacirlərdən ibarət idi. Onların arasında sənətkarlar say etibarı ilə üstünlük təşkil edirdilər. Şəhər sənətkarları təkcə şəhər əhalisini deyil, ətraf kəndlərdə yaşayan əhalinin tələbatını da ödəyirdi[198].

Son illərdə Azərbaycan ərazisi arxeoloji cəhətdən yaxşı öyrənilmiş, müəyyən nailiyyətlər əldə edilmişdir. Azərbaycanın bir sıra şəhərlərində arxeoloji qazıntı işləri aparılmış, əldə edilən materiallar elmi cəhətdən öyrənilmiş, bir sıra monoqrafiyalar və ümumi əməyin məhsulu olan tədqiqat əsərləri yazılmışdır[199]. Arxeoloji materiallar və yazılı qaynaqların məlumatlarına əsasən, Azərbaycan şəhərlərində erkən orta əsrlərdə onlarla sənət və peşə

---

[197] İsmayılov, R.İ. Misirdə kənd və şəhər (Abbasilər dönəmi) / R.İ.İsmayılov. – Bakı: Elm və təhsil, – 2015. – s.103-104.

[198] Babayev, İ.A. Əhmədov Q.M. Qəbələ (Tarixi-arxeoloji oçerk). – s.31-32.

[199] Azərbaycan arxeologiyası: [6 cilddə] / M.Rəhimovanın redaktəsi ilə. – Bakı: Şərq-Qərb, – C. 6. – 2008; Dostiyev, T.M. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə / T.M.Dostiyev. – Bakı: BDU nəşriyyatı, – 2001; Məmmədov A.M. Qədim Gəncə (arxeoloji tədqiqatlar əsasında) / A.M.Məmmədov. – Bakı, Təknur, – 2014; Nuriyev, A. Bərdə şəhərinin tarixi-arxeoloji oçerki (Antik və orta əsrlər) / A.Nuriyev, Ə.Babayev – Bakı: Nurlan, – 2001

sahələrinin mövcud olduğu müəyyən edilmişdir. Tam olmayan bu siyahıya dəmirçilik, silahsazlıq, misgərlik, zərgərlik, qalayçılıq, bənnalıq, daşyonma, dulusçuluq, şüşə istehsalı, dülgərlik, toxuculuq, dərzilik, ipəkçilik, boyaqçılıq, sümükişləmə, dabbağlıq, çəkməçilik, sərraclıq, şirniyyatçılıq, əczaçılıq, çörəkçilik, qəssablıq, ətriyyatçılıq və s. daxil idi. İbn Havqəlin əsərində yuxarıda adı çəkilən demək olar ki, bütün sənət məhsullarının Kursurə bazarında satıldığına açıq-aşkar işarə edilir[200].

Ərəb xilafəti dövründə Azərbaycan şəhər əhalisinin tərkibində tacirlər və ticarətlə bağlı olan digər təbəqələr də mühüm yer tuturdu. Tacirlər özləri də bir neçə qrupa bölünürdü. Onların arasında iri tacirlər fərqlənirdi. İbn Havqəl öz əsərində belə tacirlərdən bəhs etmişdi. Kursurədə fəaliyyət göstərən məşhur tacirlərdən biri Əbu Əhməd ibn Əbdu-r-Rəhman əş-Şizi Marağayi idi. O, *"Azərbaycan tacirlərinin böyüyü" ("seyyid tüccar Əzərbəycən" –سيد تجار اذربيجان )* hesab olunurdu[201].

Şəhərlərdə xırda tacirlər təbəqəsi də var idi. Bundan başqa bu və ya digər şəkildə ticarətlə bağlı olan digər sosial qruplara (karvansara işçiləri, sərraflar, nəqqadlar, sələmçilər) da rast gəlinirdi.

Orta əsr ərəb və farsdili yazılı qaynaqlar Ərəb xilafəti dövründə Azərbaycan şəhərlərində yaşayan əhalinin sosial tərkibindən bəhs edərkən bəttal (işsizlər), raqiq (qullar), ummal (günəmuzduçular) haqqında da məlumat vermişlər.

VI fəslin dördüncü yarımfəsli **"Kənd əhalisi"** adlanır. Ərəb xilafati dövründə Azərbaycan əhalisinin böyük bir hissəsini kənd əhalisi təşkil edirdi. Mənbələr şəhər əhalisi haqqında nisbətən ətraflı məlumat versələr də çox vaxt kənd əhalisinin sosial tərkibi haqqında susurlar. Bununla belə, bəzi orta əsr ərəbdilli mənbələr Ərəb xilafəti dövründə Azərbaycanda şəhərlərlə yanaşı çox sayda kəndlərin olmasından xəbər verirlər. Məsələn, ibn əl-Fəqih təkcə Arranda dörd mindən çox kənd olduğunu yazır[202].

Mənbələrin verdiyi məlumatlara əsasən, kənd əhalisini aşağıdakı kimi qruplaşdırmaq olar: 1.Kənd yerlərində yaşayan hakim

---

200 Vəlixanlı, N.M. Azərbaycan VII – XII əsrlərdə. – s.296.

201 ابن حوقل ابو القاسم النصبي. كتاب صورة الآرض. القسم الثانى. ص - 352.

202 ابن الفقيه. كتاب البلدان. ص- 586.

təbəqə nümayəndələri, torpaq sahibləri və icma başçıları. 2.Bilavasitə əkinçiliklə məşğul olan və müxtəlif kateqoriyaya bölünən kəndlilər.3.Maldarlıqla məşğul olan kəndlilər. 4.Sənətkarlar. 5.Heç bir qrupa daxil olmayan öz güzəranını müxtəlif yollarla keçirən təbəqələr.

Bəzi ərəbdilli mənbələrdə ərəblər tərəfindən ələ keçirilmiş kəndlərdən bəhs olunur. Onların verdiyi məlumata görə, Dərbənd bölgəsində torpaq sahiblərinin-maliklərin yaranması ərəblərin hakimiyyəti dövrünə aiddir[203].

Kənd əhalisi hakim təbəqələri sırasında iqtadarlar xüsusi yer tuturdular[204]. Ərəb xilafəti dövrünün iqtisadi həyatından bəs edən Əbu Yusif[205] və Həmid ibn Zəncuyə[206] öz əsərlərində iqtadarlar kateqoriyasının *("sahib əl-iqta"-صاحب الاقطاع)* formalaşması məsələsinə xüsusi fəsil ayırmışlar.

Dehqan termini Ərəb xilafəti dövründə də öz varlığını qoruyub saxlamışdı. Bu terminə ərəbdilli (əl-Bəlazuri, əl-Vaqidi, əl-Xarəzmi, Əsəm əl-Kufi, Yəhya ibn Adəm, əl-Məsudi və.s.) mənbələrdə tez-tez rast gəlinir. Əl-Məsudinin yazdığına görə, dehqanlar beş təbəqəyə bölünürdü. Hər təbəqənin özünəməxsus geyim forması olmuşdur[207].

Əbu Yusif şəhər və kənd əhalisindən ayrı-ayrılıqda bəhs edərək onları müvafiq olaraq *"əhlu-l-mədain" (şəhərlərin əhalisi – اهل المدائن ) və "əhlu-l-qura" (kəndlərin əhalisi – اهل القرى)* adlandırır[208]. Ərəbdilli mənbələrdə kəndlilər ümumi şəkildə "fəllah" (فلاح ) və "müzariun" (مزارع ) adlandırılırdı. İbn Havqəlin əsərində tez-tez "kənd əhalisi" ifadəsinə də rast gəlirik[209]. Onun əsərində kənd əhalisinin etnik mənsubiyyəti məsələsinə də toxunulmuş və Savalan

---

[203] Ахмедов, Ш. Земельные отнешения в Дагестане в V – XI вв // – Махачкала: Ученые Записки Дагестанский филиал Академии Наук СССР, Серия общественных наук, – 1969. № 19, – с.49.

[204] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə. – s.130.

[205] ابو يوسف يعقوب بن ابراهيم . كتاب الخراج .ص-57-58.

[206] حميد بن زنجوية. كتاب الاموال، الرياض، 1430، ص- 613-636.

[207] المسعودي، مروج الذهب و معادن الجوهر، الجزء الاول، ص-241.

[208] ابو يوسف يعقوب بن ابراهيم . كتاب الخراج.ص.68.

[209] ابن حوقل ابو القاسم النصبي. كتاب صورة الآرض. القسم الثانى، ص-337.

bölgəsində əhalisi müxtəlif dildə danışan kəndlərdən bəhs edilmişdir[210].

Ümumiyyətlə, mənbələrin verdiyi məlumatlara əsasən, Ərəb xilafəti dövründəki kəndliləri aşağıdakı kimi qruplaşdırmaq olar: 1. Əsasən əkinçilik və onun müxtəlif sahələri ilə məşğul olan torpaqlı kəndlilər; 2. Torpaqsız kəndlilər; 3. İcmaçı kəndlilər; 4. Maldarlıqla məşğul olan kəndlilər.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat prosesində əldə olunmuş başlıca elmi-nəzəri nəticələr sistemləşdirilərək ümumiləşdirilmişdir. Tədqiqat nəticəsində Ərəb xilafəti dövründə Azərbaycan torpaqlarındakı etno-sosial vəziyyət, ölkə əhalisinin tərkibindəki başlıca etnoslar və sosial təbəqələr müəyyən edilmişdir.

---

210 ابن حوقل ابو القاسم النصبي. كتاب صورة الآرض. القسم الثانى، ص-347.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. İbn Hövqəlin "Kitab surət əl-ard" əsəri Azərbaycan haqqında // – Bakı: AMEA Tarix İnstitutunun Elmi Əsərlər, – 2011. c.XXXIX, – s. 10-25.
2. İbn Hövqəlin "Kitab surət əl-ard" əsəri xəzərlər haqqında // – Bakı: Tarix və onun problemləri, – 2014. № 2, – s. 26-36.
3. Ərəb mənbələri Sacilər dövləti və onun hüdudları haqqında // – Bakı: Tarix və onun problemləri, – 2014. № 3, – s. 294-303.
4. Əl-İstəxrinin "Əl-Məsalik va-l-məmalik" əsəri Azərbaycan haqqında // – Bakı: Tarix və onun problemləri, – 2014. № 4, – s. 349-356.
5. Ərəbdilli mənbələr Azərbaycanın Dərbənd şəhəri və onun əhalisi haqqında // – Bakı: Pedoqoji Universitet Xəbərləri, – 2014. № 3, – s. 180-185.
6. Hunlar və Azərbaycan xalqının formalaşmasında onların rolu // – Bakı: Pedoqoji Universitet Xəbərləri, – 2014. № 4, – s. 185-191.
7. Xəzərlər və Azərbaycan xalqının formalaşmasında onların rolu // – Bakı: Geostrategiya, – 2014. № 6, – s. 67-72.
8. Ərəb Xilafəti dövründə Azərbaycanın İrandilli əhalisi // Aida İmanquliyevanın 75 illik yubileyinə həsr olunmuş "Şərqşünaslığın Aktual Problemləri" mövzusunda Respublika Elmi Konfransının Materialları, – Bakı: – 2014, – s. 313-315.
9. Ərəb Xilafəti dövründə Azərbaycan əhalisinin dili // – Bakı: Tarix və onun problemləri, – 2015. № 1, – s. 16-31.
10. Səlcuqlara qədərki dövrdə Azərbaycanda türklərin varlığına dair faktlar // – Bakı: Tarix və onun problemləri, – 2015. № 2, – s. 28-37.
11. İbn Miskəveyhin "Kitab təcarib əl-uməm" əsəri Azərbaycan əhalisi haqqında // – Bakı: Tarix və onun problemləri, – 2015. № 3, – s. 11-17.
12. Azərbaycan türkləri haqqında məlumatlar Yəmən hökmdarlarına həsr olunmuş mənbələrdə // – Bakı: Strateji təhlil, – 2015. № 1, – s. 191-201.
13. Ərəb Xilafəti dövründə "Azərbaycan" tarixi-coğrafi anlayışı və

onun hüdudları // “Azərbaycanşünaslığın aktual problemləri”. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş konfransın Materialları, 2 hissədə, I hissə. Bakı: – 5-7 may, – 2015, – s. 49-52.
14. “Türkman” anlayışı və onun etimologiyası ərəb və farsdilli müəlliflərin əsərlərində // – Bakı: Geostrategia, – 2015. № 3, – s.67-71.
15. Ərəb Xilafəti dövründə Azərbaycan əhalisinin hakim təbəqələrinin sosial zümrə tərkibi // – Bakı: Tarix və onun problemləri, – 2015. № 4, – s. 56-64.
16. Azərbaycan türklərinin etnik tarixinin öyrənilməsində “Kitabi-Dədə Qorqud”un rolu // – Bakı: Geostrategiya, – 2016. № 4, – s. 25-29.
17. Ət-Təbəri Azərbaycan türkləri haqqında // – Bakı: Geostrategiya, – 2016. № 5, – s.16-20.
18. Ərəb xilafəti dövründə Azərbaycan şəhər əhalisinin sosial tərkibi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2017. №-1, – s. 42-48.
19. Sasanilərin Azərbaycanda həyata keçirdiyi köçürmə siyasəti və onun etnik nəticələri // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2017. № 3, – c. 40-50.
20. Bir daha Albaniya və albanlar haqqında // – Bakı: Bakı Dövlət Universitetinin İlahiyyat fakultəsinin Elmi Məcmuəsi, – 2017. № 28, – s. 371- 381.
21. Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi / R.Ə.Ağayev. – Bakı: Turxan NPB, – 2017. – 344 s.
22. Ərəbdilli mənbələr siyavurdilər haqqında // – Bakı: Bakı Dövlət Universitetinin Xəbərləri, – 2017. №4, – s. 86-93.
23. Azərbaycan və Şərqi Anadolu ərəbdilli müəlliflərin təsvirində (X-XIII əsrlər) // Azərbaycan-Türkiyə münasibətlərinə həsr olunmuş II Beynəlxalq elmi konfransın materialları, – Kastamonu: – 12-14 oktyabr, – 2017, – s.132-138.
24. Xəlifə ibn Xəyyat əl-Usfurinin “Tarix” əsəri Azərbaycan haqqında // Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı qəhrəmanı Ziya Musa oğlu Bünyadovun

xatirəsinə həsr olunmuş "Müasir şərqşünaslığın aktual problemləri" ("Ziya Bünyadov qiraətləri") mövzusunda Beynəlxalq Elmi Konfrans. Tezislər, – Bakı: – 16-17 oktyabr 2017, – s.13.
25. Xəlifə ibn Xəyyat əl-Usfurinin "Tarix" əsəri Azərbaycan haqqında // Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı qəhrəmanı Ziya Musa oğlu Bünyadovun xatirəsinə həsr olunmuş "Müasir şərqşünaslığın aktual problemləri" ("Ziya Bünyadov qiraətləri") mövzusunda Beynəl-xalq Elmi Konfransın materialları, – Bakı: – 1917, – s.19-25.
26. Страны Прикаспия и их население в описании Ибн Хаукала // – Грозны: Вестник АН Чеченской Республики, – 2017. № 1. – с. 28-35.
27. Переселенческая политика Арабского Халифата в Азербайджане // – Москва: Вопросы Истории, – 2017. № 8. – с. 169-176.
28. Поселение тюркских племен в Азербайджане и отражение этого процесс в топонимике страны // – Волгоград: Вестник ВолГУ, Серия 4, История. Регионоведение. Международные отношение, – 2017. № 4, – с. 46-55.
29. Арабские географы-путещественники X – XIII вв. О языках народов Кавказа // Материалы Четвертые Всероссийские историко-этнографические чтения, посвященные памяти профессора Магомедова Расула Магомедовича, – Махачгала: – 12 апреля, – 2017, – с. 22-24.
30. Сведения арабоязычных первоисточников о санарах // – Москва: Вопросы Истории, – 2018. №11, – с. 158-166.
31. Sasanilər dövləti və Ərəb xilafətinin Azərbaycanda həyata keçirdiyi köçürmə siyasətində türk tayfalarının yeri // – Gəncə: Gəncə Dövlət Universiteti, Elmi Xəbərlər, – 1918. № 1, – s.223-229.
32. Ərəb xilafəti dövründə Azərbaycanın hüdudları və əhalisi ibn Xəldunun təsvirində // – Bakı: Azərbaycan xalçaları, – 2018. № 27, – s. 110-117.
33. Ərəb xilafəti dövründə Azərbaycan kənd əhalisinin sosial tərkibi // – Gəncə: Gəncə Dövlət Universiteti, Elmi Xəbərlər, – 2018. № 4, – s.216-224.

Dissertasiyanın müdafiəsi 09 iyun 2023 il tarixində saat 10^00 Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143. Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 01 may 2023 il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.04.2023

Kağızın formatı: 60x84 $^{1}/_{16}$

Həcmi: 74470

Tiraj: 100